Xalqın qəzeti!

# Xalq qəzeti

№ 50 (30744) 6 mart 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Dövrün çağırışları yeni yanaşma tələb edir



Səhifə ⇨ 4

# Azərbaycan–Türkiyə: Adımız qoşa, Odumuz ortaq

## Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

### Ankaranın Esenboğa Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib.**

Ankaranın Esenboğa Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyənin maliyyə naziri Mehmet Şimşek və digər rəsmi şəxslər qarşıladılar.

### Azərbaycan və Türkiyə prezidentləri İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər

**Martın 5-də Ankarada İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.

Açılış mərasimində çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bildirdi ki, İğdır–Naxçıvan qaz boru kəməri layihəsi Naxçıvanın qaz təchizatını şaxələndirməklə yanaşı, həm Naxçıvan, həm də İğdır əhalisinin rifahına xidmət edəcək. Layihənin daha bir özəlliyi ondan ibarətdir ki, bu gün kəmərin maksimum ötürmə gücü 730 milyon kubmetrdirsə, gələcəkdə layihənin genişləndirilməsi imkanları da var.



Sonra Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar çıxış edərək İğdır–Naxçıvan qaz kəməri layihəsini Türkiyə və Azərbaycan qardaşlığının daha bir simvolu adlandırdı. Nazir bütün Naxçıvanı qazla təmin edəcək İğdır–Naxçıvan qaz kəməri layihəsinin ərsəyə gəlməsinə görə dövlət başçılarına təşəkkür etdi.

Azərbaycan Prezidenti mərasimdə çıxış etdi.

(ardı 2-ci səhifədə)

# Regional kommunikasiyalar, məhkəmə və sülh gündəmi

## *İrəvan rəhbərliyinin məqsədi nədir?*

**Ermənistan baş naziri Nikol Paşinyan son günlər Azərbaycanla sülh prosesinin ən vacib elementi olan regional kommunikasiyaların açılması barədə danışmağa başlayıb. Daha doğrusu, mövcud istiqamətdəki fikirlərini intensivləşdirib. Deyəsən, torbada pişik var. Yoxsa, Nikol dilinə bu qədər güc verməzdi.**

Hayastan iqtidarı, adətən, əvvəldən nə iləsə razılaşmır, ona qarşı müqavimət göstərir, hətta beynəlxalq tərəfdaşlarını məsələyə qatıb anti-Azərbaycan təbliğata güc verir, sonradan isə yavaş-yavaş Bakının irəli sürdüyü mətləblərin üstünə doğru gəlir. İndi də durum, təxminən, eynidir.



Paşinyan erməniliyindəndə qalmır, ölkəsi üçün hansısa sərfəli variant axtarışına ara vermir. Heç şübhəsiz, bu axtarışların qlobal oyunlarda iştirak təmayülü, alət rolunda çıxış etmə tərəfi var ki, bu məsələ çox təhlükəlidir. Baş nazirin regional kommunikasiyaların açılması ilə bağlı bildirdiklərinin cəfəng mahiyyətinə də eyni prizmadan yanaşmaq mümkündür.

(ardı 6-cı səhifədə)

# Aİ Ermənistana əlavə 10 milyon avro ayırır

## *Yardım regionda əmin-amanlığa xidmət etmir*



**Avropa İttifaqı (Aİ) Ermənistana Avropa Sülh Fondundan 10 milyon avro məbləğində əlavə yardım ayırmaq niyyətindədir. Bununla bağlı Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas şuraya təklif təqdim edib. Təklif qarşıdakı həftələrdə nəzərdən keçiriləcək və Aİ-yə üzv olan 27 ölkənin hamısı tərəfindən bəyəniləcəyi təqdirdə qüvvəyə minəcək. O da bildirilib ki, 10 milyon avro Hayastanın müdafiəsini dəstəkləmək üçün nəzərdə tutulur.**

Göründüyü kimi, bu, humanitar yox, hərbi yardımdır. Yəni Ermənistan sözügedən vəsaitdən hərbi məqsədlər üçün istifadə edəcək. Yardım sülh, sabitlik, təhlükəsizliyə deyil, müharibəyə, ölkələri təxribata çəkməyə xidmət edəcək. İrəvan aldığı dəstəklə sülhdən yayınmağa çalışacaq. Bu isə rəsmi İrəvan üçün yaxşı nə isə vəd etmir.

(ardı 6-cı səhifədə)

## Orta Dəhliz: Şərqdən Qərbə ən qısa yol



Səhifə ⇨ 9

## "SOCAR Türkiyə" investisiya fəaliyyətini genişləndirir



Səhifə ⇨ 9

## "Tramp rüsumları" qlobal qiymət bazarına necə təsir göstərəcək?



Səhifə ⇨ 8

# Azərbaycan və Türkiyə prezidentləri İğdır–Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak ediblər





(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Cümhurbaşqanı, əziz Qardaşım.

Hörmətli mərasim iştirakçıları.

Bu gün Türkiyə–Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür – İğdır–Naxçıvan qaz xəttinin açılışı qeyd edilir. Burada deyildiyi kimi, Naxçıvanda hörmətli Cümhurbaşqanı ilə birlikdə bir il yarım bundan öncə biz bu qaz xəttinin təməlini qoyduq və artıq bu gözəl mərasimdə iştirak edirik.

Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir. Xüsusilə Birinci Qarabağ savaşı başlayan kimi Ermənistan Qarabağı işğal etdi və eyni zamanda, Naxçıvanı blokadaya aldı. Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular.

Naxçıvanın o zaman işğal altına düşməməsinin səbəblərindən biri də o idi ki, o zaman Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü inşa edilmişdir və Türkiyədən gələn yardımlar Naxçıvanın qorunmasına çox önəmli töhfə vermişdir.

Bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə nəhəng layihələr reallaşdırır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP kimi neft-qaz boru xətləri layihələri nəinki ölkələrimizi birləşdirdi, eyni zamanda, Avrasiyanın enerji xəritəsini dəyişdirdi. Bu gün Azərbaycandan Türkiyə ərazisindən gedən qaz bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Keçən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatmışdır. Onun təxminən yarısı Türkiyəyə olan ixracatdır və Türkiyədən başqa da 11 ölkə, onlardan 10 Avropa ölkəsi Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini gücləndirir.

Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürüləcək artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır.

Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz, eyni zamanda, nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda da əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi.

Bugünkü mərasim bir daha Türkiyə–Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür. Əminəm ki, Naxçıvanda yaşayan 500 minə yaxın soydaşımız bu gün gözəl Ramazan ayında bu mərasimi də bayram kimi qeyd edəcək. Bütün bu işlərdə iştirak etmiş yoldaşlarımıza, dostlarımıza öz adımdan təşəkkürümü bildirirəm. İnşaat işləri qısa müddət ərzində, cəmi bir ildən bir qədər çox çəkdi və biz artıq bu gözəl mərasimdə iştirak edirik.

Bir daha hər birimizi, Türkiyəni və Azərbaycanı bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, xalqlarımıza, dövlətlərimizə yeni uğurlar diləyirəm. Sağ olun.

***

Sonra Türkiyə Prezidenti mərasimdə çıxış etdi.



## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Əziz Qardaşım Prezident İlham Əliyev.

Hörmətli nazirlər, hörmətli qonaqlar.

Sizləri ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.

Qardaşım Azərbaycan Prezidenti cənab İlham Əliyevi Türkiyədə qəbul etməkdən böyük məmnunluq duyduğumu xüsusilə ifadə etmək istəyirəm. Ona və dəyərli nümayəndə heyətinə Ankaramıza "Xoş gəldiniz!" deyirəm.

Hazırda qarşımda bu işlərdə əməyi olan fəhlə və mühəndis qardaşlarımız var. İnşallah, çıxışlarımızı bitirdikdən sonra onlarla birlikdə Türkiyə və Azərbaycan üçün ayrıca xatirə şəkillərimizi çəkdirəcəyik.

Dəyərli qardaşımın və nümayəndə heyətinin timsalında Azərbaycan xalqının mübarək Ramazan ayını ürəkdən təbrik edirəm. "Bir millət, iki dövlət" şüarı ilə formalaşan qardaşlıq münasibətlərimizdə hər sahədə böyük irəliləyişlər əldə edirik. Ölkələrimiz arasındakı münasibətlər müdafiədən ticarətə qədər çox geniş sahədə daim inkişaf edir. Şübhəsiz ki, bu əməkdaşlıqlarımız arasında bir çox layihə ilə taclandırdığımız enerji sektoru başda yer alır. Bəzilərinin xəyal hesab etdiyi Bakı–Tbilisi–Ceyhan xam neft boru kəməri kimi, "Şahdəniz" yatağının və Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəmərinin istismara verilməsi ilə enerji əməkdaşlığımızı daha irəliyə aparmağa nail olduq. Anadoludan keçən təbii qaz boru kəməri – TANAP vasitəsilə böyük miqdarda Azərbaycan qazının Avropaya çatdırılmasının sevincini yaşayırıq. Bu sahədə strateji və qeyri-adi layihələri həyata keçirməkdə Can Azərbaycan ilə tam uzlaşma içərisindəyik.



Bu gün İlham qardaşımla birlikdə bu əməkdaşlığa yeni bir layihəni də əlavə etməkdən böyük məmnunluq duyuruq. Bir azdan açılışını edəcəyimiz İğdır–Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq. BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək. Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq.

Fürsətdən istifadə edərək, bunu da demək istəyirəm ki, Türkiyə və Azərbaycan sülhün, sabitliyin, rifahın tərəfindədir. Bölgəmizdə ancaq sülh istəyirik, əməkdaşlıq istəyirik, hamımızın birlikdə inkişaf etməsini istəyirik. Bu məqsədlə indiyədək bir sıra addımlar atdıq, səmimiyyətimizi göstərdik. İnşallah, bundan sonra regional sülh, rifah və əmin-amanlıq bağlı hər cür layihəni birlikdə həyata keçirməkdə qətiyyətliyik.

6 fevral zəlzələləri başda olmaqla, ən çətin günlərimizdə necə ki, Can Azərbaycanı yanımızda gördüksə, biz də qardaşlarımızın ehtiyac duyduğu hər an yanlarında olacağıq. İnşallah, Naxçıvanla elektrik əlaqələrimizin də gücləndirilməsi ilə bu prosesi davam etdirəcəyik.

Bu hisslərlə bugünkü mərasimimizin Türkiyə–Azərbaycan qardaşlığını daha da gücləndirəcəyinə inanıram. Bu mühüm layihənin həyata keçirilməsinə töhfə verən hər kəsi, bütün qurumlarımızı diqqətlərinə görə, istər işçisi, istərsə də mühəndisi olmaqla, əməyi keçən bütün şəxsləri təbrik edirəm. Rəbbim birliyimizi, həmrəyliyimizi, sevgimizi daimi etsin. Layihənin bütün bölgə üçün xeyirli olmasını arzu edirəm.

İlham qardaşıma səfərə görə xüsusilə şəxsən öz adımdan, ailəm adından və millətim adından təşəkkürümü bildirirəm.

***

Çıxışlardan sonra videobağlantı formatında İğdır–Naxçıvan qaz kəmərinin açılışı oldu.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov və qardaş ölkənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar İğdırda qaz kəmərini işə saldılar.

Sonda xatirə fotosu çəkdirildi.

# Prezident İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü



**Martın 5-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

# Azərbaycan və Türkiyə prezidentləri Ankarada iftar süfrəsində iştirak ediblər



**Martın 5-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iftar süfrəsində iştirak ediblər.**

**AZƏRTAC**

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar. Çoxəsrlik mədəni-mənəvi sərvətlərimizin günümüzədək layiqincə qorunub saxlanılmasında nəcib və gözəl analarımızın misilsiz xidməti vardır. Onlar öz güclü iradələri, vətənpərvərlik və fədakarlıqları ilə yurdumuzun mübarizə salnaməsində silinməz izlər qoymuşlar.

Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər.

Müqəddəs ailə dəyərlərimizə dərin sədaqət nümayiş etdirən qadınlarımız ölkəmizin ictimai həyatında böyük nüfuza malikdirlər. Əminəm ki, onlar gənc nəslin Vətənə və milli ideallara bağlılıq ruhunda yetişməsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, həmçinin ictimai-mənəvi mühitimizi yeni töhfələrlə zənginləşdirəcəklər.

**Əziz xanımlar!**
**Bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 mart 2025-ci il**

# Qadınların ictimai fəallığı yüksəlir



**Martın 5-də Bakıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş toplantı keçirilib.**

Məclisdə Azərbaycan dövlətinin yaranma tarixi, inkişaf mərhələləri və qadınların bu işə verdiyi töhfələr, Azərbaycan qadınlarının cəmiyyətdəki rolu barədə qısametrajlı film nümayiş etdirilib.

Daha sonra Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin qadınlara təbrik məktubunu səsləndirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib: “Təqvimin əlamətdar günlərindən biri kimi 8 Mart qadınlarımızın dövlət və cəmiyyət həyatındakı rolunu, ailədəki əvəzsiz zəhmətini və fədakarlığını bir daha vurğulamaq üçün bir fürsətdir”.

Onun sözlərinə görə, son 20 ildə qanunverici orqanda qadınların təmsilçiliyi artaraq 11,2 faizdən 20,8 faizə çatıb. İdarəetmənin parlament, hökumət və məhkəmə hakimiyyəti ölçüsündə qadınlar daha parlaq və daha geniş spektrdə imkanlarını genişləndirməkdədir. Dövlət qulluqçuları arasında 29,7 faizlik iştiraka malik qadınlar hakimlər korpusunda, hüquq-mühafizə orqanlarında və vəkillər arasında sıralarını daha da genişləndirməkdədir. Onların informasiya texnologiyaları və süni intellektə marağı daha da artıb, rəqəmsal iqtisadiyyatda geniş imkanlar əldə ediblər. Ölkəmizdə qadınların təhsil, sahibkarlıq və əmək bazarına çıxışı son illərdə daha əlçatan olub. Onlar dünyada sülh, təhlükəsizlik, rifah və inkişaf naminə mübarizəyə töhfələr verir, güclü, inklüziv cəmiyyət quruculuğunda, ictimai həyatda daha fəal iştirak edirlər.



Sonra çıxış edən Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan xanımlarını təbrik edib: “Qadına hörmət, ehtiram və qayğı hər bir cəmiyyətin, xalqın dünya görüşünün, mədəniyyətinin, mənəvi dəyərlərinin sanki bir məhək daşıdır. Azərbaycanın mədəniyyətində qadına hörmət xüsusi əhəmiyyət kəsb edir”.

Daha sonra çıxış edən Azərbaycanda “Rəşadət” ordeni alan ilk xanım Aydan Rəhimli peşəkar iş yoldaşlarının qəhrəmanlığı sayəsində həyatda olduğunu vurğulayıb. Bildirib ki, dəhşətli təyyarə qəzası zamanı öz vəzifə borcunu yerinə yetirərək əlindən gələni etməyə çalışıb. Mərasim bədii hissə ilə davam edib.

***XQ***

# “Bəşərin Zəfəri” – Suverenliyin təntənəsi

**Martın 5-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Bəsirətin Zəfəri” mövzusunda tədbir keçirilib. Tədbir çərçivəsində Milli Məclisin deputatı Samir Vəliyevin “Bəsirətin Zəfəri” kitabının təqdimatı da olub.**



Mərasimdə əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilmiş və təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulub: “Müstəqil, hüquqi və demokratik dövlət olan Azərbaycanın aparıcı siyasi qüvvəsi kimi, Yeni Azərbaycan Partiyası tərəfindən də silsilə tədbirlər keçiriləcək. “Bəsirətin Zəfəri” mövzusunda təşkil olunan bugünkü tədbirimiz də “Konstitusiya və Suverenlik İli” çərçivəsində ölkəmizin müstəqil inkişaf yoluna, möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, nəhayət, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir”.

Odlar Yurdu Universitetinin rektoru professor Əhməd Vəliyev çıxışında ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini vurğulayaraq müasir müstəqil Azərbaycan dövlətinin Ulu öndərin adı ilə bağlı olduğunu bildirib. O, siyasi varisliyin təmin edilməsinin Azərbaycanın gələcək taleyi üçün müstəsna əhəmiyyətə malik olduğunu söyləyərək müəllifi olduğu “Bəsirətin ünvanı” kitabında bu barədə geniş təhlillərin aparıldığını diqqətə çatdırıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında bildirib ki, xalqımız hər zaman ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevlə qürur duyur. O qeyd edib ki, “Bəsirət ünvanı” və “Bəsirətin Zəfəri” kitabları Azərbaycanın yeni liderlik modelinin təqdimatına həsr olunan çox sanballı əsərlərdir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxışında bildirib ki, 2025-ci il Azərbaycan xalqının tarixinə iki böyük siyasi hadisənin qeyd olunması ilə daxil olub: “Cari ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü münasibətilə çoxsaylı tədbirlər keçiriləcək”.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev çıxışında bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi tarixi qərardır.

Milli Məclisin deputatı Samir Vəliyev bildirib ki, Prezident İlham Əliyevin son 20 ildən artıq müddətdə apardığı siyasət bütün dünyada artıq nümunə kimi qəbul olunan inkişaf modelini formalaşdırıb. Bu siyasət nə qədər nəticəyönümlüdürsə, onun miqyası nə qədər böyükdürsə, bu barədə yazmaq da bir o qədər böyük məsuliyyətdir. Müəllifi olduğum “Bəsirətin Zəfəri” kitabı professor Əhməd Vəliyevin müəllifi olduğu “Bəsirət ünvanı” kitabının məntiqi davamıdır.

***XQ***

# Neft Emalı Zavodunda əməliyyat müşavirəsi




**Baş nazir Əli Əsədov yanğın baş vermiş Neft Emalı Zavodunda əməliyyat müşavirəsi keçirib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 5-də Neft Emalı Zavodunda baş vermiş yanğının səbəblərini yerində araşdırmaq üçün hadisə yerinə gedib, bilavasitə yanğının söndürülməsi prosesini müşahidə edib.

Baş nazir fövqəladə hallar naziri, nazirliyin aidiyyəti strukturlarının rəhbərləri, SOCAR-ın prezidenti və başqa rəhbər şəxslərin iştirakı ilə əməliyyat müşavirəsi keçirib. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və başqa məsul şəxslər yanğının səbəblərinin araşdırılması və dəymiş ziyanın hesablanmasına dair məruzə ediblər.

Baş nazir səbəblərin araşdırılması və belə halların qarşısının alınması istiqamətində qəti tədbirlərin görülməsi haqda tapşırıqlar verib.

***XQ***

# Hikmət Hacıyev Ankaradan paylaşım edib



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ankaradan paylaşım edib.**

Bu barədə o, “X”-də yazıb.

“Ankara bu gün. Bir millət, iki dövlət”, – deyə Prezident köməkçisi qeyd edib.

***XQ***

# XİN xəbər verir

**Martın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub.**



Telefon danışığı zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər 2025-ci ildə siyasi, iqtisadi, ticarət, energetika, turizm və digər istiqamətlərdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf edəcəyinə əmin olduqlarını vurğulayıb, həmçinin digər beynəlxalq platformalarda əməkdaşlıq istiqamətləri, habelə Yaxın Şərqdə vəziyyət barədə fikir mübadiləsi aparıblar.

***

**Martın 3-5-də xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə hökumət missiyası Surinam Respublikasında səfərdə olub.**



Missiyanın tərkibinə İqtisadiyyat, Energetika, Elm və Təhsil, Kənd Təsərrüfatı nazirlikləri, SOCAR və “AzərGold” QSC nümayəndələri daxildir.

Səfər zamanı Elnur Məmmədov Surinamın xarici işlər, beynəlxalq biznes və beynəlxalq əməkdaşlıq naziri Albert Ramdin, nazir müavini xanım Miriyam Makintoş ilə görüşüb.

Səfər çərçivəsində Azərbaycan Xarici İşlər Nazirliyi ilə Surinam xarici işlər, beynəlxalq biznes və beynəlxalq əməkdaşlıq nazirliyi arasında birinci siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələr zamanı ikitətəfli və çoxtərəfli siyasi əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

***XQ***

# Dövrün çağırışları yeni yanaşma tələb edir

## Azərbaycanın BMT ilə əməkdaşlığı milli prioritetlərə uyğun qurulur




**Reallıq ondan ibarətdir ki, yarandığı gündən indiyədək bu beynəlxalq təşkilat çoxsaylı problemlərlə üzləşib və illərlə onların həlli ilə məşğul olub. Onun postsovet məkanında, eləcə də Okeaniyada yaranan yeni müstəqil dövlətlərlə münasibətləri heç də asanlıqla formalaşmayıb. Hər bir müstəqil ölkənin bu müstəvidə özünəməxsus təcrübəsi var. Bu baxımdan Azərbaycan–BMT münasibətləri də maraqlı və zəngin təcrübəyə malikdir.**

Dörd gün əvvəl ölkəmizin BMT-yə üzv seçilməsinin 30 ili tamam oldu. Müstəqilliyinin ilkin illərində ərazilərinin işğalı, bir milyona yaxın qaçqın və məcburi köçkün problemi ilə üzləşən Azərbaycan kənar yardıma ehtiyac duyurdu. 1993-cü ildə Bakıda fəaliyyətə başlayan BMT-nin daimi nümayəndəliyinin Azərbaycanda rellaşdırdığı humanitar yardım layihələrini qeyd etməyə bilmərik.

Ərazilərimizin işğaldan azad edilməsi və Azərbaycanın əldə etdiyi sosial-iqtisadi uğurlar daxili resurs və imkanlara arxalanmağa şərait yaratdı. Məhz bunun nəticəsində ölkəmizin BMT qurumları vasitəsilə bəzi ölkələrə yardım göstərməsi artıq əməkdaşlığın yeni konturlarını meydana gətirdi. Bəli, Azərbaycanın iqtisadi imkanları genişləndikcə humanitar həmrəylik prinsiplərinə sadiq olaraq, bir sıra ölkələrə yardımlar etməyə başladı. Bu məqsədlə Azərbaycan hökuməti 2011-ci ildə Xarici İşlər Nazirliyinin nəzdində yaratdığı Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) xətti ilə yardım siyasətini genişləndirdi.

* * *

Son illər BMT-nin dünya üçün aktuallıq kəsb edən məsələlərə dair tədbirlərinin Azərbaycan paytaxtında keçirilməsi ənənəvi hal alıb. Keçən ilin noyabrında Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi ikitərəfli münasibətlərin zirvəsi hesab oluna bilər.

Bütün bunların fonunda onu da qeyd etməliyik ki, hazırda rəsmi Bakının BMT ilə əməkdaşlığının prioritetlərinə korrektələr etməsi müşahidə olunmaqdadır. Bu tendensiyanı dünyanın üzləşdiyi yeni reallıq və şərtlər diktə edir. Azərbaycan üçün əlahiddə əhəmiyyətə malik həmin şərtlər barədə ölkəmizdə səfərdə olan BMT-nin İnkişafı Əlaqələndirmə Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Qui-Yeop Sonla dövlət rəsmilərinin görüşlərində ayrıca danışıldı. Azərbaycan–BMT əlaqələrinin hazırkı vəziyyətinin və perspektivinin müzakirə olunduğu həmin görüşlərdə qurumun 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin icrası istiqamətində əməkdaşlığın müxtəlif aspektləri, eləcə də bu əməkdaşlığın yeni dövrün reallıqlarına və Azərbaycanın dayanıqlı inkişaf sahəsində milli prioritetlərinə uyğunlaşdırılaraq daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparıldı. Bununla əlaqədar, Azərbaycan rəhbərliyi BMT ilə əməkdaşlıqda prioritetlərini yeni dövrün reallıqlarına uyğun və dünyada ən böyük beynəlxalq təşkilatın resurslarından daha səmərəli istifadə edəcək şəkildə yenidən nəzərdən keçirdiyini vurğuladı. BMT-nin bəzi qurumları ilə bundan sonrakı tərəfdaşlığın milli prioritetlərə uyğun şəkildə, layihə əsaslı əməkdaşlıq mexanizmi vasitəsilə davam etdiriləcəyi diqqətə çatdırıldı.

Bakı görüşlərində bir vacib məqama da toxunuldu: Azərbaycan artıq yardım qəbul edən dövlətdən qlobal gündəliyə töhfə verən ölkəyə çevrilib. Yəni ölkəmiz dövrün tələblərinə uyğun olaraq, BMT ilə əməkdaşlıqda BMT-nin Məskunlaşma Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyi və digər aidiyyəti qurumlar ilə əməkdaşlığın prioritet təşkil etməsi və bəzi BMT qurumları ilə də gələcək əməkdaşlığın bu model əsasında, birbaşa mənzil qərargahları ilə işləməklə davam etdiriləcəyi qeyd olunub. Qui-Yeop Son bu istiqamətdə Azərbaycanla BMT arasında davam edən əməkdaşlığın təqdirəlayiq olduğunu bildirib. Xanım Son BMT-nin 2030 Dayanıqlı İnkişaf Gündəliyinin icrasına dəstək istiqamətində Azərbaycan hökuməti ilə yüksək səviyyəli əməkdaşlıqdan və tərəfdaşlıqdan məmnunluğunu ifadə edib. O, milli inkişaf prioritetlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə dəstək üçün Azərbaycan hökuməti ilə tərəfdaşlıq və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirib.

* * *

Beləliklə, rəsmi Bakı BMT ilə əməkdaşlıq formatını nəzərdən keçirdiyini və Azərbaycanın ikitərəfli münasibətlərdə prioritetlərini yeni reallıqlara uyğun şəkildə tənzimlədiyini açıqladı. Yəni BMT-nin bəzi strukturları ilə gələcək tərəfdaşlıq Azərbaycanın milli prioritetləri əsasında, layihə əməkdaşlığı mexanizmi vasitəsilə həyata keçiriləcək. Bu o deməkdir ki, Cənubi Qafqazda güc və söz sahibinə çevrilmiş Azərbaycan BMT ilə tərəfdaşlıq münasibətlərinə korrektələr edir və bu zaman milli prioritetlər ön plana çəkilir. Yeni yanaşmanı zəruri edən amillər göz qabağındadır.

Bakının dünyanın ən nüfuzlu beynəlxalq qurumu ilə əməkdaşlığının gələcək perspektivlərini şərtləndirən əsas amil ölkəmizin artıq yardım alan dövlətdən qlobal gündəmə töhfə verən ölkəyə çevrilməsidir. Bu kontekstdən yanaşanda Bakı üçün BMT-nin Nizamlama Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyi və digər müvafiq qurumlarla əməkdaşlıq prioritet olaraq qalacaq.

BMT-nin özünün müasir çağırışlara cavab verən daha effektli təşkilata çevrilməsinin vacibliyi barədə müxtəlif dövlətlərin başçıları tərəfindən təklif və müraciətlər səsləndirilib. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev BMT-də islahatlara ehtiyac olduğunu dəfələrlə vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, Təhlükəsizlik Şurasının strukturu köhnəlib və o, müasir reallıqları əks etdirmir. Coğrafi tarazlıq üçün onun tərkibi genişləndirilməlidir.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** XQ-yə açıqlamasında qeyd etdi ki, Azərbaycanın BMT ilə əməkdaşlığı artıq yeni keyfiyyət mərhələsinə



qədəm qoyub: "Əvvəllər ölkə ciddi problemlərlə – bir milyon qaçqın və məcburi köçkünlə, dağılmış iqtisadiyyatla və məhdud resurslarla üzləşəndə BMT-nin ixtisaslaşmış proqramlarının dəstəyinə ciddi ehtiyac duyurdu. Həmin vaxt təşkilatın qaçqınlarla işləyən strukturları, eləcə də FAO, ÜST və BMTİP vasitəsilə Azərbaycanın dirçəlməsində, iqtisadiyyatının yenidən qurulmasında rol oynayan bir sıra yardımlar göstərib. Bununla belə, hazırda vəziyyət dəyişib. Bu gün BMT-nin ixtisaslaşmış qurumlarının Azərbaycana ayırdığı yardımın ümumi məbləği 5 milyon dollardan azdır. Belə şəraitdə ofisləri və inzibati strukturları saxlamaq faydasız görünür. Üstəlik, indi Azərbaycan özü beynəlxalq yardım göstərir və onun həcmi BMT-nin ölkəmizə ayırdığı yardımın həcmindən 5-10 dəfə çoxdur. Məhz buna görə qərara alınıb ki, BMT ilə əməkdaşlıq formatı dəyişdirilsin. Bu əməkdaşlıq ixtisaslaşmış qurumların daimi nümayəndəlikləri ilə deyil, Azərbaycanı maraqlandıran konkret proqramlar vasitəsilə davam etdirilsin.

Ölkəmiz həm maliyyə, həm də diplomatik baxımdan bu cür proqramlarda iştirak etməyə hazırdır. Əgər ortada maraq yoxdursa, deməli, iştirak da yoxdur. Bu, BMT-yə etimadsızlıq məsələsi deyil, Azərbaycan dövlətinin yetkinliyinin və yeni şəraitdə qarşılıqlı fəaliyyət formatının göstəricisidir. Azərbaycan BMT ilə münasibətləri bəlkə daha dərin səviyyədə, başqa istiqamətlərdə də inkişaf etdirməyə hazırdır. Digər tərəfdən, BMT-nin resurslarının dəstəyə ciddi ehtiyac duyulan yerlərə – Afrika, Asiya və digər regionlara yönəldilməsi daha məntiqidir".

* * *

Azərbaycan–BMT əlaqələrinin keçmişinə qayıdaraq onu da qeyd edək ki, ölkəmiz sülh və təhlükəsizlik məsələlərinə dair siyasi müzakirələrdə daim yaxından iştirak edib. Qurumun mandatı ilə həyata keçirilən praktiki fəaliyyətə öz töhfəsini verib. Azərbaycanın 2012-2013-cü illərdə BMT TŞ-nin qeyri-daimi üzvü kimi beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar edilməsi üzrə siyasi proseslərdə iştirakı ölkəmizin nüfuzunu artırdı. Həmin dövrdə Azərbaycan daim beynəlxalq hüquq və ədaləti müdafiə etdi.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri, politoloq Fərid Şəfiyevin**



fikrincə, Azərbaycan beynəlxalq ictimaiyyətə siqnal verir ki, artıq, o, yardım alan dövlətdən donor statusuna keçmiş, yəni fərqli kateqoriyalı dövlətdir: "Bizim əməkdaşlığımız, yəqin ki, indi dəqiq vaxt və maliyyə məhdudiyyətləri olan BMT-nin konkret layihələrində, məsələn, UNICEF və digər proqramlar çərçivəsində qurulacaq. Ümumiyyətlə, Azərbaycanın BMT ilə heç bir problemi yoxdur, baxmayaraq ki, ayrı-ayrı hadisələr baş verir. Məsələn, diqqətçəkən məqamlardan biri BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığının Bakıda məhkəməsi gedən "dqr"in xunta rejiminin keçmiş liderlərinə "ədalətli məhkəmə" qurulması üçün çağırışı oldu. Bu, Azərbaycan üçün qətiyyən qəbuledilməz bir çağırışdır. Maraqlı odur ki, Bakının BMT ilə əməkdaşlıq formatına yenidən baxılması qərarı bu bəyanatdan əvvəl verilmişdi.

Ona görə də mən, əslində, bunu siyasi mesaj kimi qəbul etməyin əleyhinəyəm. Əksinə, bu, müəyyən mənada münasibətlərin optimallaşdırılması deməkdir. Baxmayaraq ki, BMT-nin Azərbaycandakı bəzi ofisləri bağlanacaq. Amma həmin təşkilatların siyahısında, məlum olduğu kimi, ölkəmizdə ermənipərəst fəaliyyət göstərən Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin də adı var".

Azərbaycan üçün beynəlxalq hüququn aliliyi həmişə əsas olub. Bu istiqamətdə fəaliyyəti zamanı dövlətlərin suverenliyi, siyasi müstəqilliyi, ərazi bütövlüyü, daxili işlərinə qarışmamaq kimi prinsipləri rəhbər tutulur. Dövrün çağırışları da bu yanaşmanı tələb edir BMT ilə gələcək münasibətlərin formatına gəldikdə isə Azərbaycan üçün təşkilatın Məskunlaşma Proqramı, Ətraf Mühit Proqramı, İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyi və digər aidiyyəti qurumları ilə əməkdaşlıq prioritet təşkil edəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

Replika

## Haypərəstlərin "xor kopellası"

**Anti-Azərbaycan koalisiyasının üzvləri faydalılıq əmsalı sıfıra bərabər olan hay-küylərini ifraz etməkdə davam edirlər. Bu dəfə mikrofona İspaniya parlamentinin üzvü, ermənilərə hədsiz rəğbəti ilə seçilən Con İnarritu yaxınlaşıb.**



Artıq neçənci dəfədir ki, özünü parlament tribunasında "qafqazşünas" kimi təqdim edən deputat həmkarlarının diqqətini "Ermənistan ərazilərinin Azərbaycan tərəfindən işğalına" yönəldib. Avropa İttifaqının mülki müşahidə missiyasının Ermənistanda mövcudluğunun "sərhədlərin demarkasiya prosesinin daha da genişlənməsinin qarşısını almaq və diplomatiyanı təşviq etməkdən" ötrü vacibliyindən danışan Con İnarritunun çaşıb sözün düzünü dediyi göz qabağındadır. Onun sözlərindən belə çıxır ki, Aİ-nin Ermənistandakı missiyası "sərhədlərin demarkasiya prosesinin daha da genişlənməsinin qarşısını almaq" kimi təxribatçı fəaliyyətlə məşğuldur. Alman və fransız kəşfiyyatçılarının əsl niyyətini açıb ortaya qoyan ispaniyalı deputat ardınca utanmadan missiyanın mandatının daha iki il müddətinə uzadılmasının "Cənubi Qafqazda sabitliyin və sülhün möhkəmləndirilməsi istiqamətində mühüm addım" olduğunu bəyan edib: "Missiya Ermənistanın Azərbaycanla sərhədindəki vəziyyətin monitorinqində, beynəlxalq hüququn tələblərinə əməl olunmasının təmin edilməsində və iki xalq arasında dinc dialoqun təşviqində mühüm rol oynayır".

Avropadakı haypərəst düşərgənin təşkil etdiyi "xor kopellası"nın ispaniyalı "bek-vokalisti" Con İnarritu hesab edir ki, Aİ missiyasının daha iki il Ermənistanda qalması bu ölkədə "demokratik idarəçiliyi gücləndirmək, qanunun aliliyini qorumaq və sabitliyi təşviq etmək səylərini dəstəkləmək öhdəliyini" əks etdirir. Bununla da kifayətlənməyən deputat "binokllu kəşfiyyatçıların" "Cənubi Qafqazda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyin təmin edilməsi üzrə daha geniş strateji məqsədlərə" xidmət edəcəyi barədə yasaq notlara toxunur.

Ardınca haypərəst "xorun solisti" Azərbaycanın üzərinə "total hücuma" keçir: "Son illərdə Cənubi Qafqazda zorakılıq aktları törədən yeganə aktor Azərbaycan olub. Bakı aqressiv hərəkətlərini davam etdirdikcə regionda yeni eskalasiya riski yüksək olaraq qalacaq".

İspan deputatın "qafqazşünaslıq" üzrə dərin biliyinə qibtə etməmək mümkün deyil. O, bölgənin problemlərini "hərbi təcavüz yolu ilə deyil, dialoq və danışıqlar yolu ilə həll etmək üçün beynəlxalq qurumlar Bakıya təzyiq göstərməyə davam etməlidir" deyəndə yəqin danışıqlar prosesini pozmağa çalışan "kollektiv Qərb"in dəyirmanına su tökdüyünü ağlına da gətirməyib.

"Dağlıq Qarabağ" ifadəsini dövriyyəyə buraxmağı hədəfləyən Con İnarritu bölgədə "etnik təmizləmə aparan, Ermənistan ərazisini işğal edən, o cümlədən beynəlxalq hüququ pozan silahlar alan, açıq şəkildə hücum əməliyyatları aparmağa yönəlmiş hərbi büdcəsini və imkanlarını artıran yeganə ölkənin" Azərbaycan olduğunu kürsüdən üfürəndə, bunun əksinə olaraq, Ermənistanın yalnız öz sərhədlərini və ərazi bütövlüyünü qorumaq üçün silahlar aldığını deyəndə vicdanının səsinə deyil, erməni lobbisinin pullarının xışıltısına qulaq kəsildiyi bəllidir.

Bu sözləri isə ermənipərəst ispan bir il bundan əvvəl "Armenpress"in müxbirinin sualına cavabında deyib: "Ermənistanın demokratik ölkə kimi çıxış etdiyi Qafqaz regionunun reallığını tanımaq çox vacibdir. Azərbaycanın isə hətta güclü demokratik sistemi yoxdur. İki ölkənin davam edən münaqişəyə yanaşmasında aydın fərq var. Ermənistan özünü müdafiə etməyə və sülh sazişinə nail olmağa çalışır, Azərbaycan isə təcavüzə, işğala və təhdidlərə əl atır".

İzaha və şərhə ehtiyac duyulmayan bu vay-şivənin heç bir faydasının olmayacağını yəqin Con İnarritunun özü də bilir. Təəccüblü deyil. Təəccüb doğuran Kral taxt-tacına varislikdə yalnız ana xəttinin əsas götürüldüyü qədim İspaniyada belə fərdlərin peyda olmasıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan–Türkiyə: möhkəm təməllər, ortaq əməllər

**Qardaş Türkiyə ilə iqtisadi əlaqələr getdikcə genişlənir. Hazırda tranzit-logistika, gömrük, İKT, ticarət və s. sahələrdə əlaqələrin möhkəmlənməsi, ərazilərimizin işğaldan azad edilməsi ilə əlaqədar yaranan yeni reallıqlara uyğun olaraq iqtisadi əlaqələrin daha da inkişafı yönündə layihələrin reallaşdırılması diqqət mərkəzində saxlanılır. Bunlarla bərabər, iki dövlət arasında Preferensial Ticarət Sazişinə əsasən, qarşılıqlı ticarət həcminin və məhsul çeşidinin artırılmasına xüsusi önəm verilir.**



Azərbaycanın ixrac–idxal proseslərində də qardaş ölkə xüsusi rol oynayır. Respublikamızın keçənilki ixracının 9 faizinin, idxalının isə 16 faizinin Türkiyə ilə bağlı olması məhz bunun bariz ifadəsidir. Türkiyə ilə ticarətdə Azərbaycan müsbət saldo əldə edir. Belə ki, hazırda Azərbaycanın Türkiyə ilə ixracı 3,5 milyard dollara, idxalı isə 2,3 milyard dollara çatır. Beləliklə, 1,2 milyard dollarlıq müsbət saldo yaranır.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrdə büruzə verir. Bu layihələr 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə daha da genişlənib.

Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsində, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir.

Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı var. Hər iki ölkə liderləri tərəfindən mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərilir.

Sonda tarixi önəm daşıyan bir məsələyə də toxunmaq istərdik. Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında azad edilən ərazilərin bərpası prosesindən danışarkən bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayıb. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışıb, bu dövlətin Vətən müharibəsinin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəməyib.

Türkiyə şirkətlərinin Qarabağın yenidənqurma işlərində də səmərəli iştirakından bəhs edən Prezident İlham Əliyev deyib: "Ümumilikdə, Türkiyə şirkətləri Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər. Əlbəttə ki, işğaldan azad edilmiş torpaqlarda da bir çox sahələrdə Türkiyə şirkətləri uğurlu fəaliyyət göstərəcəklər".

Türkiyə son illərdə Azərbaycana yatırılan investisiyaların və Azərbaycanın yatırdığı sərmayələrin həcminə görə də önəmli yer tutub. Qardaş ölkəyə hazırkı dövrədək 20 milyard dollardan çox, Türkiyə şirkətləri tərəfindən isə Azərbaycana 16 milyard dollardan artıq investisiya qoyulub.

Türkiyə Azərbaycanın xarici ticarət tərəfdaşı olaraq ilk üçlükdə qərarlaşmış dövlətdir. Bu ölkələr arasında birinin digərinə yatırdığı investisiyanın həcminə nəzər saldıqda Azərbaycanın kiçik dövlət olmasına baxmayaraq, Türkiyə iqtisadiyyatına daha çox–20 milyard dollara yaxın investisiya qoyduğu aydın nəzərə çarpar.

Ölkələrimiz arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıqla daha da güclənib. 2023-cü ildə Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarət dövriyyəsi 8 milyard ABŞ dolları olub. Ötən il də artım dinamikası davam edib, Azərbaycanın Türkiyə iqtisadiyyatına etdiyi yatırımların həcmi isə 20 milyard dolları ötüb. Bu rəqəmin gələcəkdə daha da artacağı gözlənilir.

Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir, çünki Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Həmçinin 2020-ci ildən tam fəaliyyətə başlayan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) layihəsi də Azərbaycan qazını Türkiyə vasitəsilə Avropaya ixrac etmək üçün mühüm bir imkan yaradıb. TANAP Cənubi Qafqazı Avropa bazarına bağlayan əsas enerji layihələrindən biridir və bu, yalnız iki ölkə arasındakı iqtisadi əlaqələri möhkəmləndirmir, həm də Azərbaycanın enerji ehtiyatlarını Avropaya çıxarmaq üçün geniş imkanlar təqdim edir. Bu layihələr, həm də Azərbaycanın və Türkiyənin regional enerji təhlükəsizliyini təmin etməsinə və Avropa bazarları ilə daha sıx əlaqə qurmasına şərait yaradır.

Beləliklə, Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın ən mühüm addımlarından biri olan TANAP təbii qaz resurslarının müxtəlifliyini artırmaq üçün indiyədək həyata keçirilən ən strateji layihələrdən biridir. Bu layihə sayəsində ümummilli lider Heydər Əliyevin dövründə başlayan Türkiyə və Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlıq yeni müstəviyə keçib.

Davamlı şəkildə güclənən qardaşlıq bağları və strateji müttəfiqlik əlaqələrinin inkişafı ölkələrimiz qarşısında duran çoxsaylı problemlərin uğurla həllinə imkan yaradır. Bu işbirliyinin mühüm nəticələrindən biri də illərdir Ermənistanın yaratdığı blokada şəraitində yaşamağa məcbur olan Naxçıvan Muxtar Respublikasının enerji təminatının daha etibarlı səviyyəyə çatdırılmasıdır. Azərbaycan və Türkiyə liderlərinin uzaqgörən siyasətinin nəticəsi kimi ərsəyə gələn İqdır-Naxçıvan qaz kəməri məhz bu məqsədə xidmət edir. Türk coğrafiyası üçün mühüm əhəmiyyət daşıyan Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından bu kəmər xüsusi önəm kəsb edir. Muxtar respublikanın təbii qaza tələbatının tam ödənilməsində və bir mənbədən asılılığının aradan qaldırılmasında İqdır–Naxçıvan qaz kəməri əhəmiyyətli rol oynayacaq.

Sonda bir daha qeyd edək ki, Azərbaycan və Türkiyə arasındakı münasibətlər iki ölkənin ortaq tarixindən, mədəniyyətindən və dilindən qaynaqlanaraq beynəlxalq səviyyədə güclü strateji əməkdaşlığa çevrilib. Türk dünyası daxilində ölkələrimiz arasında artan əməkdaşlıq yalnız iki dövlətin deyil, bütün Türk dünyasının birliyini və inkişafını dəstəkləyir.

Əminliklə söyləyə bilərik ki, gələcəkdə Azərbaycan–Türkiyə əməkdaşlığı daha da inkişaf edəcək və Türk dünyasının güclənməsinə töhfələr verəcək. Bu, yalnız regional deyil, qlobal təhlükəsizlik və iqtisadi inkişaf baxımından da mühüm əhəmiyyət kəsb edir.

***XQ***

# İrəvan–Tehran oxu və Paşinyanın "nağıl pəncərəsi"

## *Ermənistan İrana qarşı səmimi deyil*

**Ermənistan baş naziri Nikol Paşinyan İranın dövlət televiziyasına müsahibəsində İrəvan – Tehran münasibətlərinin hazırkı fazasından söz açarkən, məsələyə, belə demək mümkünsə, çox gendən yanaşıb. Nikolun söylədiklərində bir başlıca məqam diqqət çəkir. O bildirib ki, Ermənistan İrana qarşı heç bir hərəkətdə iştirak etməyəcək. İnanan daşa dönsün!**



Bəri başdan bildirək ki, Paşinyan qeyri-səmimidir və bu barədə sonda söz açacağıq. İndilik onu deyək ki, Ermənistan Azərbaycanla sülh gündəliyi baxımından müxtəlif manipulyasiyalara baş vurmaqdadır. 44 günlük müharibədən sonra rəsmi İrəvan həmişə bu sayaq gedişlərə əl atıb və bir çox hallarda Tehranı özü üçün sipər sayıb. İrandakı bəzi dairələrin erməni sevdasına arxalanaraq, necə deyərlər, "cuşa gəldiklərini" də bilirik...

Əlqərəz, Ermənistanın Azərbaycanla sülh gündəliyi baxımından müxtəlif manipulyasiyalara baş vurması fonunda Paşinyanın müsahibəsində hiyləgərliklə dilə gətirdiyi bir fikir var: "Mən belə bir idealı bəyanat verə bilərəm ki, bizim digər münasibətlərimizdə İran İslam Respublikası üçün heç bir təhlükə yoxdur. Ümid edirəm və əminəm ki, İran İslam Respublikasının digər, üçüncü tərəflərlə münasibətlərində Ermənistan Respublikası üçün heç bir təhlükə yoxdur. Məhz bu anlaşma münasibətlərimizin dərinləşməsi üçün təbii şərait yaradır".

Nikolun düşüncəsində İranın əməkdaşlıq etdiyi üçüncü tərəf Azərbaycandır. İranın isə hazırda Azərbaycan – Ermənistan sülh gündəliyinin regional kommunikasiyalar seqmenti ilə bağlı mövqeyi aydındır. Rəsmi Tehran Cənubi Qafqazda sərhədlərin dəyişməzliyinin tərəfdarıdır ki, bu, Paşinyan iqtidarının Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesi ilə üst-üstə düşür. Halbuki Azərbaycanın Naxçıvana yolla bağlı Ermənistandan tələbi heç də sərhədləri dəyişdirmək cəhdi deyil.

Başqa bir məqama diqqət yetirək. Erməni iqtidarı Cənubi Qafqazı Qərb təsir zonasına daxil etmək istiqamətindəki oyunlarda aktiv iştirakçıdır və bu, İslam respublikasının mövqeyinin regionda kənar qüvvələrin yolverilməzliyi fundamentallığına ziddir. Belə olan halda, İranın hansı tədbirlər görəcəyi maraqlıdır. Hələlik hər şey qaydasındadır.

Tehranın və İrəvanın baxış müxtəlifliyi məlumdur. Bıçaq nə zaman sümüyə dirənə bilər, birincisi, bu, qeyri-müəyyəndir. İkincisi, daha yaxşı olar ki, İrəvan və Tehran arasında ziddiyyətlər, ümumiyyətlə, yaşanmasın. Yəni İranın Cənubi Qafqaz müstəvisindəki qlobal kataklizmlərdə aktiv funksiya daşımasına ehtiyac yaranmasın. Nəzərə alaq ki, belə perspektiv ölkəyə, yumşaq desək, müsbət heç nə vəd etmir. Üçüncüsü isə ümumən yaşadığımız coğrafiyanın münaqişələrdən uzaq sabit inkişaf məkanı olması vacibdir.

Ancaq nəzərə almalıyıq ki, İran üçün təhlükə yaransa, bu təhlükənin real ünvanı Ermənistan olacaq. Azərbaycanın müstəqillik illərində tutduğu bəlli balanslı kurs var və həmin kurs cənub qonşumuzla bağlı beynəlxalq kampaniyalarda iştirakdan uzaqdır. Ölkəmiz sınaqlardan çıxmağı bacarıb. Eyni şeyi Ermənistanla bağlı söyləmək mümkünsüzdür. Yəni Paşinyanın İran telekanalına nəyi danışmasından asılı olmayaraq, İrəvan Tehran üçün potensial risk mənbəyidir. Deməli, Paşinyanın İranla münasibətlərdə Ermənistanı güvənilməbilən tərəf kimi göstərmək üçün gətirdiyi arqumentlər mənasızdır.

Məsələn, Nikol deyir ki, ölkəsi 2000-ci ildən Avropa Şurasının üzvü olmasına, hazırda Avropa İttifaqı ilə dərinləşən münasibətlərinə baxmayaraq, İranla əlaqələrindəki müsbət dinamikanı qoruyub. Aİ-nin Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində lövbər salmış mülki müşahidə missiyasının NATO təsisatına çevrilməsi yönündə söz-söhbətlər isə bitmək bilmir. Bu gün Aİ-yə qoşulmaq üçün qanun layihəsi hazırlamış Ermənistan NATO-ya üzvlük məsələsini ortaya qoysa, bu, İrana sərf edəcəkmi? Əlbəttə ki, yox!

Eyni zamanda, onu da deyə bilərik ki, Nikol müsahibəsində söz açdığı qeyri-zorakı məxməri inqilab Ermənistanın 2018-ci ilə qədər keçilmiş yolunu inkar edir. Axı həmin ilədək Ermənistan Rusiya ilə də qardaş idi. Rusiya kimi hamisinə yan çeviran Ermənistan eyni hərəkəti İrana qarşı etməzmi? Tərəddüdsüz edər. Nəzərə alaq ki, 2018-ci ildən başlayaraq, kollektiv Qərbin anti-İran ritorikası yerini anti-Rusiya ritorikasına vermişdi. 2022-ci ildən sonra bu ritorika daha da güclənməyə başlayanda, rəsmi İrəvan da özünün Rusiya əleyhinə kursunu gücləndirmişdi. Yəni Ermənistan adekvat davranaraq axına uyğun hərəkət yolu tutmuş, tarixi bağlılıq amilini danmışdı. O zaman əlavə suallar yaranır: Qərbin anti-İran kampaniyası yenidən vüsət alsa, Paşinyan indi dediyi sözünü tuta biləcəkmi? Kim təminat verə bilər ki, Ermənistan Rusiyaya qarşı olduğu kimi, İrana qarşı da çıxmayacaq?

Əlbəttə, Ermənistanın hazırda İrana qarşı çıxacaq siyasi resursu yoxdur. O mənada ki, Qərbin, o cümlədən ABŞ-ın anti-Rusiya mövqeyinin səngiməsi fonunda İranın təklənməsi mümkünsüzdür və bu mənada Paşinyan nə söylədiyinin fərqindədir. Yəni, o, bildirdiklərimizi düşünür. Digər tərəfdən, ABŞ-da hakimiyyət dəyişikliyi fonunda ümumən Qərbin siyasi baxımından dişsiz duruma düşmə reallığı var. Hərçənd, Tramp Administrasiyasının qarşıdakı müddətdə konkret olaraq İrana münasibətdə necə davranacağı qeyri-müəyyəndir...

Bəli, hələlik, Paşinyanın gəlişigözəl ifadələrə üstünlük verməsi keçərlidir. Ancaq bir anlıq dünyada anti-Rusiya kampaniyasına oxşar kampaniyanın İrana qarşı yönəldiyini təsəvvürə gətirək. Mümkündürmü ki, Qərb İranı bombalamaq üçün hərbi bazalarından birini Ermənistanda yerləşdirmək qərarına gəlsin və Paşinyan iqtidarı həmin qərara boyun əyməsin? Qətiyyən inandırıcı deyil.

Hazırkı Ermənistan – Avropa İttifaqı əməkdaşlığının İrana zidd təmayülünə gəlincə, bunun qarşısına sipər çəkən Azərbaycanın mövqeyidir. "Region region ölkələri üçündür" şüarının praktik əhəmiyyətini vurğulayan rəsmi Bakı Rusiya ilə yanaşı, İranın da Cənubi Qafqaz maraqlarının Qərbə təslim edilməsinin qarşısının alınmasında da mühüm aktordur. Ölkəmiz Ermənistanın "peşka" xarakterinin qol-qanad açmasına imkan verməməklə regional əməkdaşlıq formatına sədaqətini göstərir.

Digər tərəfdən, Paşinyan İran telekanalına müsahibəsində bildirir ki, ölkəsi İslam dünyası ilə əlaqələrinin bundan sonra da (?) dərinləşməsində maraqlıdır və bu mənada, İranla münasibətlər çox önəmlidir. Yəqin, baş nazirin fikirlərindəki paradoksallığın fərqinə vardınız. Məsələ ondadır ki, rəsmi İrəvan Bakıya qarşı antipatiya kampaniyasında din amilinə fokuslanır. Həmişə belə olub. Ermənistan təbliğatı ilə elə təəssürat yaradır ki, sanki müsəlman Azərbaycanı xristian Ermənistanını məhv etmək istəyir və sair.

Sözümüz ondadır ki, din amili İrana qarşı qlobal ziddiyyətlərdə katalizator rolunu oynayıb. Qərbin ermənipərəst dairələri Ermənistanı müdafiə məqsədilə bu amilə baş vuranda ölkəni müsəlman Azərbaycanı və Türkiyə ilə yanaşı, həm də İranın əhatəsindəki xristian qalası kimi göstərirlər. Hər halda, Tehranda bu tendensiyanın fərqindədirlər və onun ziyanlı tərəflərini hesablamağı bacarırlar.

Sonda əvvəldə vurğuladığımız məqama qayıdaraq İran telekanalı müxbirinin konkret sualına mücərrəd cavabı fonunda Paşinyanın bildirdiklərinin qeyri-səmimi olduğunu sübuta yetirək. Beləliklə, Nikola ünvanlanmış sual belədir: Qərb dövlətləri İrana hədə-qorxu gəlsə, Ermənistan nə edəcək?

Paşinyan bildirir ki, "biz təhdidlə (hədə-qorxu ilə – red.) nəyin nəzərdə tutulduğunu aydınlaşdırmalıyıq". Görəsən, Nikol nəyi aydınlaşdırmaq fikrindədir? Axı, ortada təhdid varsa, aydınlaşdırmaq və ya nəyisə müəyyənləşdirmək məntiqi keçərsizdir. Elə bu ifadədə ənənəvi erməni məkrinin hər sifəti canlanır və bu ifadədən sonra Paşinyanın istər İranın sabitliyinin Ermənistanın sabitliyi, istər İranın təhlükəsizliyinin Ermənistanın təhlükəsizliyi olmasına, istərsə də İrəvanın İslam respublikasını turist axını baxımından cəlbedici saymasına, eləcə də ölkələrin Şimal–Cənub ticari-iqtisadi əməkdaşlığına dair söylədikləri yalnız nağıl danışmaqdır. Ermənistan baş nazirinin danışdığı ən böyük nağıl isə ölkənin öz maraq və mənafelərini rəhbər tutmasıdır. 2018-ci ildən bu yana Qərbin aləti rolunda çıxış edən Paşinyan iqtidarı hara, milli maraqlar hara?

***Ə.RÜSTƏMOV***
***XQ***

# Regional kommunikasiyalar, məhkəmə və sülh gündəmi

(əvvəli 1-ci səhifədə)

Digər bir məqama nəzər salaq. Hazırda elə təəssürat var ki, N.Paşinyanın Ermənistan üçün müəyyənləşdirdiyi bir gündəm mövcuddur. Ermənistanın və havadarlarının, o cümlədən xaricdəki ermənipərəst dairələrin başqa mövzusu var. Nikol regional kommunikasiyaların açılmasından, bütövlükdə, sülh şərtlərindən söz açır, digərləri "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsi ətrafında şou yaradır, beynəlxalq ictimaiyyətə müxtəlif cinayətlərdə təqsirləndirilən ermənilərin Bakıdakı məhkəmə prosesinin, guya, qeyri-qanuni, humanist dəyərlərə zidd olduğunu vurğulamağa, nəticə etibarilə Azərbaycanı nüfuzdan salmağa çalışırlar. Amma hər iki məqam bir-biri ilə əlaqəlidir. Əlaqənin hansı məqsədin reallaşmasına kökləndiyini sonda əsaslandıracağıq. Hələlik isə...

***

N.Paşinyan Azərbaycanın Ermənistana göndərdiyi 12-ci təkliflər paketindən sonra aktivləşib və həm jurnalistlərlə söhbətlərində, həm yazdığı məqaləsində, həm də İran televiziyasına müsahibəsində öz baxışlarını məhz həmin təkliflərə cavab kimi açıqlayıb. Nikolun yerli mediaya müsahibəsində və məqaləsində nələri bildirdiyini vurğulamışıq. Onu da deyək ki, Nikolun İran mediasına müsahibəsi də demək olar, eyni məsələlər barədədir. Hərçənd, bir fərqli məqam var. Paşinyan yenidən "Dünyanın kəsişməsi" təşəbbüsündən söz açıb. Amma sözügedən təşəbbüsü səsləndirdiyi təkliflərin heç bir hissəsinə daxil etməyib. "Dünyanın kəsişməsi" sanki havada qalıb.

Nikol, böyük ölçüdə, dəmir yolu əlaqəsinin bərpası haqqında danışır. Belə təəssürat yaranır ki, baş nazir bu yolu quru yolu seqmentindən ayrı tutur. Diqqət yetirək, o, dəmir yolundan söz açanda, Azərbaycanın digər əraziləri ilə Naxçıvanın əlaqəsini qabardır. Üstəlik, bu əlaqədə "Ermənistandan Ermənistana yol"a da "yer tapır".

Paşinyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Naxçıvana yolun maneəsizliyi kazusunu inkar edir. Belə mövqe rəsmi Bakının həmin yolu "Azərbaycandan Azərbayacan yol" kimi nəzərdə tutmasına qarşıdır. Mövcud durumda Nikolun irəli sürdüyü yenilik aşkar həyasızlıqdır. Həyasızlığın adı isə "Ermənistandan Ermənistana yol"dur.

"Ermənistandan Ermənistana yol" Mehri-Yerasx marşrutunun Naxçıvandan keçməsinə əsaslanmaqla cəfəng mahiyyət daşıyır. Çünki Mehri ilə Yerasx arasında quru yolu onsuz da var. Yəni Nikolun adlandırması heç cür yerinə düşmür. "Azərbaycandan Azərbaycana yol" isə sərhəd və gömrük nəzarətinin olmaması deməkdir.

Maraqlıdır ki, Nikol "Ermənistandan Ermənistana yol"da sərhəd nəzarətinin olmaması üzərində də dayanmır. Deyir ki, önəmli olan ölkələrin ərazi bütövlüyü və suverenliyidir. Nəzərə alaq ki, İrəvanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesi ölkəmizin istəyinə qarşı çıxmaqdır. O zaman "Ermənistandan Ermənistana yol" formulu da mənasızlaşır. Bir halda ki, Paşinyan "Azərbaycandan Azərbaycana yol"u maneəsiz təsəvvürə gətirmir, yəni bu barədə açıq danışmır, məntiqlə "Ermənistandan Ermənistana yol" da eyni xassəyə malik olmalıdır. O zaman, baş nazir nə üçün mənasız məsələdən danışır? Sual ritorikdir, çünki onun sonda açıqlayacağımızı vəd etdiyimiz məqsədi var.

***

Bəli, Ermənistan rəhbərliyi üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliyi yerinə yetirmir və Paşinyanın dili ilə dövriyyəyə qarışıq məsələlər gətirir. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin vurğuladığı da elə budur. Ümumən, A.Hacızadənin Nikolun bildirdiklərinə dair açıqlamasında üç məqam var. Birincisi, "Otuz ilə yaxın bir müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərini işğal altında saxlamış, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının blokadaya düşməsinə səbəb olmuş Ermənistanın 44 günlük Vətən müharibəsindən sonrakı dörd ildə də kommunikasiyaların açılması üzrə real danışıqlar prosesinə müsbət töhfə vermədiyi hər kəsə məlumdur". İkincisi, "Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı Ermənistan yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinin mövcud olduğunu bilsə də, onları indiyə qədər yerinə yetirməyib". Nəhayət, üçüncüsü, "Ümumilikdə, Ermənistanın mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürməsi diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə bu istiqamətdə praktiki addımlar atmalıdır".

Göründüyü kimi, A.Hacızadənin şəxsində ölkəmizin xarici siyasət idarəsinin praktiki addımlar formulu konkretdir. Praktiki addımlardan söz düşmüşkən, ötən ilin yayında Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin işçi qrupu çərçivəsində əldə edilmiş razılıq bu baxımdan diqqət çəkmişdi. Həmin razılığa görə, Naxçıvana yol üzrə Ermənistanın yurisdiksiyasına zidd olmayan formul tapılmış və rəsmi İrəvan əvvəlcə buna hətta müsbət reaksiya vermişdi. Amma sonra-



dan erməni iqtidarı mövqeyindən geri çəkilmiş, beləliklə işçi qrupunun fəaliyyəti pozulmuşdu.

Paşinyan indi də pozuculuqla məşğuldur. O, vacib məsələnin ətrafında, bir növ, gəzişir, elə təəssürat yaradır ki, guya, problemi həll etmək əzmindədir. Ancaq onun səsləndirdikləri tezislər real addımlar atmaqdan uzaq imitativ gedişlər təsiri bağışlayır. Belə nəticəyə gəlmək olar ki, Ermənistana yalnız sülh prosesinin, necə deyərlər, yerində saymadığını göstərmək lazımdır. Ona görə də Paşinyan jurnalistlərlə söhbətində həmin prosesin dayanmadığını dilə gətirmiş, durumu müsbət qiymətləndirdiyini söyləmişdi. Yəni görüntü yaratmışdı. Təkcə Paşinyanın deyil, bütövlükdə erməni iqtidarının düşüncəsinə görə, bu görüntü risklərdən qorunmaq üçün vacibdir. Risk isə aktualdır. Çünki erməni iqtidarı, obrazlı desək, gedən qatarın çarxlarına çomaq soxmaqla məşğuldur.

Bəli, Paşinyan Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirmədiyini, daha doğrusu, öz öhdəliklərinin icrasından boyun qaçırdığını gözəl anlayır. Onu da anlayır ki, belə hərəkətlər bütövlükdə regionun inkişafını saxlamaq, qlobal kommunikasiyaların qarşısına sədd çəkməkdir. Əlbəttə, bu sayaq yanaşmanın cəzası olmalıdır və Nikol da durumun fərqindədir. Ona görə də Qərbdəki havadarlarının təlimatına əsasən vaxt udmağa çalışır, özünü konstruktiv göstərir. Ancaq onu sülh gündəmi ilə bağlı ortaya atdığı məsələlər tamamilə mənasızdır. Elə İran televiziyasına müsahibəsində bildirdikləri də eyni çürük mahiyyətə söykənib.

N.Paşinyan İran mediasına bildirib ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında İslam respublikasının ərazisindən nəqliyyat əlaqələri mövcuddur: "Biz öz növbəmizdə Azərbaycana eyni şərtləri təqdim etməyə hazırıq. Nəzərə alsaq ki, söhbət təkcə Azərbaycan–Ermənistan–Azərbaycan" tranzitindən deyil, eyni zamanda, yüklərin Ermənistandan Ermənistana daşınmasından gedir, biz müəyyən sadələşdirmələrə getməyə hazırıq. Əlbəttə ki, qarşılıqlı əsasda".

Qarşılıqlı əsasdakı güzəştlərdən söz düşmüşkən, əvvəla, burada qarşılıqlılıq amili yerinə düşmür. Bildirdik ki, Ermənistanın üçtərəfli Bəyanatla üzərinə düşən öhdəliyi var və bu öhdəlik ölkənin məğlub dövlət obrazını tamamlayır. İkincisi, əvvəldə Paşinyanın anlayışında Naxçıvana yolun yalnız dəmir yolu seqmentinin mövcudluğunu diqqətə çatdırdıq, məsələnin bütövlükdə quru yolu məntiqindən kənar olduğunu vurğuladıq.

Qeyd edək ki, Nikolun quru yolu ilə bağlı təsəvvürü var. Hiyləgərlik üzərində qurulmuş həmin təsəvvür də dolaşıq durum yaratmağa hesablanıb. Məsələn, o, regional kommunikasiyalara dair məqaləsində yükdaşımalarla bağlı Laçın–Kornidzor–Marqara marşrutunu təklif edir. O, fikrini belə əsaslandırır ki, 2022-ci ildə Ermənistan hökuməti Ermənistan–Azərbaycan sərhədində üç sərhəd-keçid məntəqəsinin açılmasını nəzərdə tutan qərar layihəsini dövriyyəyə gətirmişdi. Həmin layihə Azərbaycanın yük və minik avtomobillərinin Ermənistana daxil olmasına, Naxçıvana və Türkiyəyə getməsinə imkan verəcəkmiş.

Baş nazirin sözlərinə görə, hazırda Naxçıvana daxil olmaq üçün heç bir infrastruktur yoxdur, onu qurmaq lazımdır və bu işi, kifayət qədər, tez görmək olar. Sən demə, Laçın–Kornidzor–Marqara marşrutu məhz həmin infrastuktur hazır olanadək istifadə ediləcək variant ola bilərmiş. "İndi fiziki infrastrukturun hazırlığı baxımından, məsələn, yük maşınları Kornidzor keçid məntəqəsi vasitəsilə, Laçın–Kornidzor hissəsi ilə Ermənistan Respublikasının ərazisinə daxil ola, Ermənistan–Türkiyə sərhədinə qədər yollarımızla hərəkət edərək, Marqara keçid məntəqəsindən Türkiyəyə daxil ola bilər. Eyni şey əks istiqamətdə də mümkündür. Bu cür tranzit yüklərin daşınması üçün fiziki infrastruktur hazırdır. De-yure qərar qəbul etmək qalır. Azərbaycan və Türkiyədə maraq olarsa, qərarı qəbul etməyə hazırıq", – deyən Nikolun manipulyasiya yolu tutduğu gün kimi aydındır.

Göründüyü kimi, Paşinyan Laçın–Kornidzor–Marqara marşrutunu quru yolu, Naxçıvana yolu isə sırf dəmir yolu olaraq göstərir. Üstəlik, vurğuladıq ki, Naxçıvana yolda Mehri–Yerasx marşrutu da var. Bu, mahiyyətcə regional kommunikasiyaların açılmasını, necə deyərlər, dağa-daşa salmaqdır. Ona görə də Azərbaycan XİN sözçüsü A.Hacızadə bildirir ki, Paşinyan "icrası çətin və praktiki cəhətdən uzun marşrutlar" üzrə təkliflər irəli sürməklə, diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır. Bu isə bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atılmasından uzaq məqamdır.

***

Sonda əvvəldə bildirdiyimiz kimi, Ermənistanın regional kommunikasiyaların açılmasına dair təklifləri ilə "Azərbaycanda saxlanılan erməni məhbuslar" və Bakıda keçirilən məhkəmə proseslərinin bir-biri ilə əlaqəliliyi məsələsindən söz açaq. Onu da bildirdik ki, rəsmi İrəvan Cənubi Qafqaz regionunda qlobal kommunikasiyaların qarşısına sədd çəkmək niyyətindədir və bu, Ermənistan üçün təhlükəli oyundur. Mövcud durumda Paşinyanın, guya, sülh gündəminə güc verməsi, müxtəlif cəfəng təkliflər irəli sürməsi belə bir görüntünün yaradılmasına hesablanıb: Ermənistan "heç nə ilə razılaşmayan, daim inkarçı, işğalçı mövqe tutan, bəşəri prinsiplərə məhəl qoymayan Azərbaycan"-la barışa görə hər şeyi edir, amma qarşı tərəf bunu istəmir. El dilində deyildiyitək, qara məni basınca, qoy qaranı mən basım. Əlbəttə ki, Paşinyan və komandasının məqsədi Bakıya təzyiq göstərilməsinə və ölkəmizin İrəvan üçün sərfəli razılaşmalara getməsinə nail olmaqdan ibarətdir. Belə niyyətlər isə nəinki keçməyəcək, hətta puça çıxacaq. Həmişə olduğu kimi.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Aİ Ermənistana əlavə 10 milyon avro ayırır

(əvvəli 1-ci səhifədə)

O da maraqlıdır ki, son zamanlar Bakı ilə İrəvan arasında birbaşa əlaqələrin intensivləşdiyi və bu təmaslar sayəsində müəyyən nəticələrin əldə olunduğu, regional sülhə mane olan məqamların tədricən azaldığı bir vaxtda bu yardımın gündəmə gətirilməsi xoş niyyətdən xəbər vermir. Azərbaycan isə Aİ-nin bu addımını heç bir halda ədalətli yanaşma kimi qiymətləndirə bilməz.

Qeyd edək ki, ötən il Avropa Sülh Fondunun Ermənistana 10 milyon avro dəyərində yardım paketini təsdiqləməsi də, əslində, bu siyasətin tərkib hissəsidir. Yada salaq ki, əvvəlcə Macarıstan yardımın verilməsinə mane oldu. Azərbaycanın da proqrama daxil edilməsini tələb etdi. Həftələrlə davam edən qapalı danışıqlardan sonra avropalı diplomatlar Budapeştin müqavimətini qıra bildilər. Görəsən, bu dəfə yardımın ayrılmasına mane olan tapılacaqmı?

O vaxt ayrılmış vəsaitin də məqsədi Ermənistan silahlı qüvvələrinin maddi-texniki imkanlarını artırılmasına, böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinin yaxşılaşdırılmasına töhfə vermək idi. Əslində isə həmin vaxt yardımın ayrılması regonda ikitirəliyə xidmət etməklə gərginliyi artırdı. Sülhə deyil, gərginliyin artmasına xidmət etdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə də həmin vaxt Aİ Şurasının qərarını "yanlış və təhlükəli, regionda gərginliyin artmasına xidmət edən addım" adlandırmışdı: "Aİ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə "bölücü xətlər" yaratmaq siyasətinin təzahürüdür.

Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə



işğal altında saxlayan, hazırda ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək", – deyə Ayxan Hacızadə vurğulamışdı.

Xatırladaq ki, Avropa Sülh Fondu 2021-ci ildə yaradılıb. Aİ-dən maliyyələşən qurumun məqsədi, guya, dünyanın müxtəlif regionlarında sülhə xidmət etməkdir. Reallıqda isə məsələ fərqlidir. İş burasındadır ki, Aİ özü tamamilə qərəzli qurumdur. Cənubi Qafqazdakı proseslərə yalnız öz maraqları kontekstindən yanaşır, Ermənistanı silahlandıraraq regional sabitliyin təmin olunmasının qarşısını alır.

**Beynəlxalq AvrasiyaMətbuat Fondunun prezidenti Umud Mirzəyev** bu-



nunla bağlı bildirdi ki, Avropa Sülh Fondunun Ermənistana hərbi məqsədlər üçün yardım ayırmaq niyyəti başa düşülən deyil: "Ötən il Aİ-nin Ermənistana 10 milyon avro yardımın ayırması ilə bağlı qərarı olub. O zaman Azərbaycanın rəsmi dairələri sərt mövqe sərgilədilər. Məsələ burasındadır ki, 30 il qonşu ölkənin ərazisinin bir hissəsini işğal altında saxlamış, bu ərazilərdə vandalcasına izlər buraxmış, orada yaşayan insanlara soyqırımı yaşatmış bir ölkəyə yardımla bağlı qərarın qəbul olunması, təbii ki, hansısa maraqlardan irəli gəlirdi".

U.Mirzəyev daha sonra dedi ki, bu beynəlxalq təşkilat Azərbaycan ərazisinin işğal olunduğu dövrdə, bizə soyuq münasibət göstərib: "Bu gün təkrar 10 milyon avronun ayrılması ilə bağlı mesajların verilməsi xoş niyyətdən irəli gəlmir. Məlum olduğu kimi, Cənubi Qafqazda çox böyük bir münaqişə ocağı vardı. Azərbaycan təkbaşına bu münaqişə ocağını söndürdü və son bir neçə ildə bölgədə sabitliyi təmin etdi. Regionda sabitliyin formallaşması, görünür ki, bəzi ölkələrə əl vermir. Onlar gərginliyin yaradılmasında maraqlı tərəf kimi çıxış edirlər. Bu səbəbdən də Hayastana maliyyə yardımı ayırmaqda maraqlıdırlar. Belə bir addımın atılması hər halda xoş niyyətdən xəbər vermir.

Əgər Ermənistanın iqtisadi və sosial layihələrinə dəstək olsa idi, bunu başa düşmək olardı. Amma yardımın birbaşa hərbi imkanların artırılmasına yönəldilməsi təhlükəlidir. Gələcək fəlakətlərə yol açır. Təbii ki, işğalçı ölkəyə stimul verir. Onun Aİ-dən aldığı dəstək gələcəkdə destruktiv mövqeyini gücləndirəcək, hərbi-siyasi gərginliyi artıracaq, sülhdən yayınmağa çalışacaq.

Yenə də deyirəm ki, sərhədlərin delimitasiyası və sülh müqaviləsinini imzalanması istiqamətində danışıqların getdiyi bir vaxtda Avropa Sülh Fondunun Hayastana təkrar 10 milyon avro ayırmaq niyyəti reavanşist qüvvələrin həvəsləndirilməsinə xidmət edir. Bu qərar Ermənistanda revanşizm meyillərinin güclənməsinə,



ölkənin yenidən təcavüzkar siyasət həyata keçirməsinə təkan verə bilər. Qarşı tərəf bilməlidir ki, həm iqtisadi, həm də hərbi resurslar baxımından Azərbaycan Ordusu ilə rəqabət aparmq gücündə deyil, bu səviyyəyə çatmaq imkanından uzaqdır. Azərbaycanın bu resursları regiona barış, sülh gətirəcək".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli** isə bildirdi ki, Ermənistanın



hərbi gücünü artırmağa xidmət edən istənilən maliyyə yardımı bölgədə hərbi-siyasi eskalasiyanın artmasına xidmət edir: "Ermənistan təcavüzkar dövlətdir. 30 ilə yaxın dövr ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayıb. İki ölkə arasında hələ də sülh müqaviləsi imzalanmayıb. Bölgədə davamlı sülh formalaşmayıb. Bunun fonunda Avropa İttifaqının Ermənistana müntəzəm şəkildə maliyyə yardımları ayırması və bunun bir hissəsinin də hərbi təyinatlı olması gərginliyin artmasına xidmət edir. Paradoksal haldır ki, qurumun adını "sülh fondu" qoyublar. Ancaq bu fond heç də sülhə xidmət göstərmir. Təcavüzkar ölkənin hərbi gücünün artırılması ilə bağlı yardımlar edir. Təbii ki, Avropa İttifaqının Sülh Fondu çəçivəsində Ermənistana təkrar 10 milyon avro ayırmaq niyyətinə münasibətimiz neqativdir. Əgər İrəvan Qərbdəki "ağa"larına arxalanaraq hərbi-siyasi təxribatlarını davam etdirərsə, rəsmi Bakı müvafiq zəruri addımlar atmağa məcbur olacaq".

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# XXI əsrin yeni geosiyasi çağırışları və Azərbaycan

**I MƏQALƏ**

## Siyasi şüur dəyişir

XXI əsrin üçüncü onilliyinin artıq 5-ci ilidir. Filosoflar və siyasi nəzəriyyəçilər bu müddətdə özünü göstərmiş siyasi və geosiyasi xarakterli proseslərin dərkinə cəhd edirlər. Elmi və politoloji yanaşmaları müqayisə edəndə bir ortaq fikrin meydana çıxdığını görmək olur. Tədqiatçıların böyük əksəriyyəti əsrin üçüncü onilliyinin dünya miqyasında siyasi şüurda keyfiyyət dəyişikliyi etdiyi qənaətindədir.

Bu dəyişikliyin başlıca əlaməti isə qeyri-müəyyənlik, risklər və təhdidlərin yeni səviyyəyə yüksəlməsi və təsir dairəsini genişləndirməsindən ibarətdir. Bu ümumi tendensiyaların tərkibində Avroatlantika geosiyasi məkanının çat verməsi, Rusiya–Ukrayna münaqişəsinin qlobal geosiyasətin əsas faktoruna çevrilməsi, müxtəlif regionlarda geosiyasi dinamikanın daha da mürəkkəbləşməsi, regional və beynəlxalq təşkilatların fəaliyyətinə yeni yanaşmaların olması zərurətinin meydana çıxması və bütün bunların fonunda milli müstəqil dövlətçiliklə qloballaşma arasında ziddiyyətlərin



yeni səviyyəyə qalxması diqqət çəkir.

Belə bir mürəkkəb dinamika özlüyündə müstəqil dövlətlərdə liderliyi, xarici siyasətin prioritetlərini regional-regionlararası-qlobal miqyaslarda siyasi-diplomatik addımların kriteriyalarına yenidən baxışları daha da aktuallaşdırır. Təbii ki, vurğulanan bu məqamların Azərbaycana Cənubi Qafqazın lider dövləti, Türk Dövlətləri Təşkilatının (TDT) və beynəlxalq təşkilatların fəal üzvü, müxtəlif xarakterli əməkdaşlıq və təhlükəsizlik layihələrinin iştirakçısı kimi ciddi aidiyyəti vardır. Ayrıca, Prezident İlham Əliyevin yeni liderlik nümunəsinin meydana çıxan yeni şərtlər fonunda prinsipial tədqiqi çox əhəmiyyətlidir. Ümumi səviyyədə isə fəlsəfi və siyasi-nəzəri kontekstdə həmin məqamların əsaslı və proqnostik xarakterli təhlili vacibdir.

Burada əsas məsələ yalnız real olaraq siyasi və geosiyasi mənzərənin dəyişməsi ilə bağlı deyildir. Fəlsəfə və politologiya üçün bütün bunlara siyasi şüurun verdiyi reaksiya və onların təsiri ilə onda baş verən dəyişikliyin başlıca xüsusiyyətlərini dərk etmək önəmlidir. Azərbaycanın milli müstəqil dövlət kimi bu prosesdə optimal səmərəli seçimi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan yalnız özü üçün deyil, bütövlükdə, Cənubi Qafqaz və daha geniş miqyasda Türk Dövlətləri Təşkilatı miqyasında məsuliyyət daşıyır. Məhz bu kontekstdə Azərbaycanın regional liderliklə TDT-də aparıcı olmağı regionlararası miqyasda uğurlu siyasət yeritməklə uyğunlaşdırması tarixi əhəmiyyətli məsələ təsiri bağışlayır. Şübhə yoxdur ki, burada liderlik təcrübəsinin yeni şəraitə uyğun transformasiyasının fəlsəfəsi və siyasi-nəzəri təhlili ön plana çıxır.

Bütün bu məqamlara aydınlıq gətirmək üçün yuxarıda qeyd edilən proseslərin fəlsəfi (həm də siyasi-nəzəri) təhlili üzərində dayanmaq lazım gəlir.

## Avroatlantika məkanı

İndi müxtəlif səviyyələrdə yazırlar ki, Donald Tramp Avropanı "geosiyasi şoka" salmışdır. Əslində, Amerikanın yeni prezidenti elə də geniş danışmır. Burada başlıca təsiredici məqam ABŞ-ın artıq əvvəlki kriteriyalarla dünyada heç bir dövlətə, o cümlədən təbii müttəfiqi olan Avropa İttifaqına (Aİ) yanaşmayacağı ilə bağlıdır. D.Tramp ön sıraya maliyyəni, sədaqətliliyi və Amerikanın maraqlaının nə dərəcədə ödəndiyini çıxarır. Ümumi tezisi belədir: "Öncə Amerika"!

Amma əsas məsələ bu iki sözə hansı mənanı verməsi ilə bağlıdır. Onun təhlili göstərir ki, real olaraq həmin tezisin arxasında mürəkkəb və dolaşıq problemlər dayanır. Yəni ABŞ özü üçün həyati əhəmiyyəti olan problemlərə yeni mövqedən yanaşır. Bu anlamda "öncə Amerika" ABŞ-ın dünyadan təcrid olunmasını deyil, onun "inforser dövlət" kimi statusunu saxlamaq üçün fərqli yanaşmanı ifadə edir. Bu fikri bir qədər aydınlaşdıraq.

"İnforser" sözünün etimologiyası küçədə idarə edən, başqa sözlə, "lotuluq edən" qrupun başçısı anlamına gəlir. XX yüzildə politologiyada həmin anlayış dünya dövlətlərini idarə edən, onları yönləndirən dövlətə və ya dövlətlər qrupuna aid olunmuşdur.

XX əsrin sonlarından inforserlik modeli səmərəsiz olmağa başladı. ABŞ və digər inforserlər öz funksiyalarını yerinə yetirə bilmədilər. Getdikcə bu proses dərinləşdi və hazırda Amerika–Çin qarşıdurması formasında özünün pik həddinə çatmışdır.

Rəsmi Vaşinqton bunlardan nəticə çıxarır ki, artıq dünya liderliyi (inforserliyi) XXI yüzildə müəyyən edilmiş kriteriyalar və geosiyasi şərtlər daxilində mümkün deyildir. Buna görə də liderliyi saxlamaq üçün liderlik modelini və şərtlərini yeniləmək lazımdır. Belə görünür ki, bu prosesin ümumi geosiyasi ifadəsi "öncə Amerika"dadır. Yəni D.Tramp Qərbin elə siyasi elitasının təmsilçisidir ki, mövcud geosiyasi və hüquqi mühiti dağıdıb, yerində Amerikanın öncüllüyünü və öncəliyini təmin edəcək qlobal mühit yaratmağı əsas vəzifə sayır.

Bu baxımdan D.Tramp yalnız ABŞ-ın deyil, bütövlükdə, dünyanın geosiyasi simasını dəyişənlərdəndir. Onun kapital, iqtisadiyyat, vergi, rüsum, mədəniyyət və digər faktorlarla bağlı qeyri-standart görünən fikirlərinin arxasında bu qənaət dayanır. Deməli, Tramp strateji hədəfi olan və ona aparacaq "yol xəritəsi"nə malik rasional düşüncəli qətiyyətli siyasətçidir!

İndi, demək olar ki, bütün analitik, ekspert və siyasilərin ifadə etdikləri ortaq fikir belədir: "Tramp Avroatlantika tərəfdaşlığını geosiyasi məkan kimi dağıdır". Bəli, dağıdır, lakin məhv etmək naminə deyil, yeni geosiyasi düzən daxilində fərqli tərəfdaşlıq naminə mövcud olan nizamı pozur.

Bunu Avropada anlamırlar? "Yox" desək, sadəlövhlük olardı. Çünki bu ideya məhz Avropadan qaynaqlanır. Bu o deməkdir ki, hazırda siyasi-ideoloji plüralizmin mənfi təsiri altında olan Avropa da yeni çıxış yolu axtarışındadır.

Burada "qoca qitə"nin əsas maneəsi indi orada fərqli strateji hədəfləri olan siyasi kursların mövcudluğu ilə bağlıdır. Nəzəri təhlillər göstərir ki, Avropa Aİ-nin geosiyasi faktor kimi özünütəsdiqi aspektində dörd istiqaməti "siyasi şüurunda daşımaqdadır": bir istiqamət Avropanın ABŞ ilə daha güclü müttəfiqlik modelinə keçməsini doğru sayır, digər qrup Avropanın geosiyasi müstəqilliyinə üstünlük verir, üçüncülər Rusiyayönümlü geosiyasi mövqe seçməyi müdafiə edir, dördüncülər isə pasifistlərdir, yəni Avropanın hər cür qlobal münaqişədən kənarda durmasını arzulayırlar. Görünür, Avropa bu prosesdə D.Trampa ümid edir. Lakin, eyni zamanda, özünün daha da güclənməsi üçün müstəqil addımlar atmağa çalışır. Hər bir halda Amerika yenidən birinci olsa, Avropa kənarda qala bilərmi? Prinsipcə, mümkün deyil. Bu baxımdan E.Makron da D.Trampın "əlinə oynayır". Həmin prizmada ən maraqlı mövqeni Böyük Britaniya tutur, sonra isə Almaniya gəlir. Bunları hansı arqumentlərdən almaq olar?

## London, "Breksit" və dünya maliyyə mərkəzi

Sizcə, Böyük Britaniyanın məhz XXI əsrdə Avropa İttifaqını bir təşkilat kimi tərk etməsinin səbəbləri yalnız taktiki aspektlə bağlıdır? Böyük Britaniya kimi köklü dövlətçilik ənənəsi olan bir ölkə hər bir geosiyasi, siyasi, iqtisadi, mədəni və dövləti faktoru "zərrəbinlə yoxlayar" və yalnız öz dövlətçilik maraqlarına uyğun gələn mövqeni seçər ("ingilis bayrağı" deyimini hər kəs bilir).

Deməli, "Breksit" strateji hədəfli gedişdir. Bunun başlıca səbəbi, anladığımıza görə, Londonun yenidən dünya maliyyə mərkəzinə çevrilməsidir. Bununla ABŞ və İnglitərə, faktiki olaraq, dünyanın maliyyə cəhətdən idarə edilməsini "ikili mərkəzə" gətirir. Onun başqa hədəfi Çini bu statusdan məhrum etməyə hesablanmışdır. Rusiyanı heç demirik. XX əsrdəkindən fərqli olaraq, yeni dünyanı Amerika "Qərbin öz daxili mühitlərində dərinlərdə olan ikiqütblü model"ə transformasiya edir. Yəni "qütbləşmə görüntüsü"nü öz daxili mühitinə keçirməklə Çini və Rusiyanı bir yerdə sıradan çıxarır və bütövlükdə, çoxqütblü dünya modelini arxivə göndərir.

## Nəhəng qlobal keçid

Bu, nəhəng qlobal geosiyasi keçiddir. Baş tutsa, dünya tamamilə yeni qaydalarla yaşamalı olacaq və uzun müddət alternativ güc mərkəzlərinin yarana bilməsi imkanı minimuma enəcək.

Sinergetika sübut edir ki, iki mərkəzli inkişaf qaynağı olan sistemin dayanıqlığı və fəaliyyətinin əhatə dairəsi birmərkəzli modeldən daha çox potensiala malikdir. Burada nəzəri aspektin detalları yorucu olar. Nəticə belədir ki, ikili inkişaf qaynağı olan sistemlər çoxlu sayda inkişaf istiqamətləri yarada və onları öz cazibə sahəsində saxlaya bilir.

Onda belə alınır ki, hazırda Avroatlantika ABŞ – Böyük Britaniya tandeminin maliyyə nəzarətində olan açıq məkan kimi özünün yeni inkişaf xəttinə çıxarılır. Bu prosesin digər aspektdə anlamı, mövcud Avroatlantika kriteriyaları və mövcudluq şərtlərinin aradan qaldırılması ilə bağlıdır. Onun baş tutması üçün Böyük Britaniya Aİ "buxovundan" xilas olmalı idi. Bunu da sinergetik sübut etmək mümkündür.

Beləliklə, "yeni Avroatlantika Birliyi" ikimərkəzli maliyyə qaynağına və öncəkindən fərqli fəaliyyət şərtlərinə malik olacaq konfiqurasiyanın formalaşması ilə bağlıdır. Bunun fonunda Fransann iqlimlə bağlı çapalamaları və Avropada təhlükəsizliyin təminatçısı olmaq iddiası miskin görünür. Bu səbəbdəndir ki, Fransa diplomatiyası qlobal miqyasda heç bir uğur qazana bilməmişdir. Almaniya isə daha təmkinlidir.

Əlbəttə, Fridrix Mers xristian-demokrat kimi ABŞ – Britaniya tandeminə alternativ ola bilməz. Lakin Almaniya II Dünya müharibəsindən sonra üzərinə qoyuan çox sayda açıq və gizli məhdudiyyətlərdən qurtulub, yeni inkişaf səviyyəsinə yüksələ bilər. Bu yüksəliş Vaşinqton üçün təhlükəli deyildir. Üstəlik, ABŞ strateji olaraq, qlobal geosiyasətin əsas şərtlərini dəyişirsə, Berlinə sərbəstlik vermək elə bir əngəllə rastlaşmayacaq. Deməli, O.Şoltsun həyata keçirmək imkanı olmayan bir prosesi reallaşdırmaq üçün alman siyasi mühiti Xristian-demokratı ortaya atdı. İndi Qərbdə siyasətçilər deyirlər ki, Almaniyada H.Koldan sonra dünya miqasında vəziyyətə təsir edə biləcək lider olmamışdır. D.Tramp indi bu şansı yaradır!

## İncə və dəqiq oyunun bir fraqmenti

Ancaq yeni Avroatlantika quruculuğu yalnız Londonun dünya maliyyə mərkəzinə çevrilməsi ilə sərhədlənmir. Burada qlobal miqyasda yeni konfiqurasiya yaratmaq üçün bir sıra prinsipial geosiyasi məsələni həll etmək, dəyişikliklər həyata keçirmək lazım gəlir. Rəsmi Vaşinqtonun davranışından görünür ki, həmin prosesdə Rusiyanın ayrıca yeri və rolu vardır.

Bu bağlılıqda Rusiya – Ukrayna münaqişəsi təsadüfən qlobal geosiyasətin əsas faktoruna çevrilməmişdir. Təsir dairəsi və potensial gücünə görə, Çinlə mübarizə hədəfə daha tez apara bilərdi. Lakin ABŞ və kollektiv Qərb Rusiyanın münaqişədə olmasından istifadə etməyə üstünlük verdi. Özü də indi çox incə və dəqiq oyun aparır.

Öncə, Vaşinqton təşəbbüsü ələ aldı, V. Zelenskini "danladı". Bundan dərhal sonra London meydana çıxdı. V.Zelenskiyə "bura gəl" işarəsini verdi. İndi Böyük Britaniya yeni inkişafın ikinci mərkəzi kimi siyasi-diplomatik oyununu məharətlə aparır.

Sizcə, Böyük Britaniya ABŞ-ı qane etməyən geosiyasi oyun qurar? Qətiyyən mümkün deyildir. Xatırlayaq, V.Zelenskinin Vaşinqton fiaskosundan sonra İngiltərənin baş naziri bəyanat verdi: Amerika Ukraynanı atmaz! Yəni "Rusiyanın qucağına atmaz! Doğrudan da, London toplantısı göstərdi ki, Amerika Ukraynanı Böyük Britaniyanın qucağına atmışdır və orada V.Zelenski də tədbirdə iştirak edən çoxlu sayda dövlət də özlərini "rahat hiss edirlər". Bir tərəfdən, guya, ABŞ-dan azad hərəkət etməyin zövqünü yaşayırlar, digər tərəfdən, hesab edirlər ki, Moskvaya qarşı Ukraynanı müdafiə edə biləcəklər.

Bununla hazırda Avrasiyada Aİ-nin deyil, Böyük Britaniyanın başçılığı ilə proseslər yönləndirilir. Aİ üzvləri faktiki olaraq Londonun liderliyi ilə oyuna qatılırlar. Artıq onları ABŞ müdafiə etmir, deməli, qalır Böyük Britaniya!

Bütün bunların fonunda Amerikanın başlıca arqumenti nədən ibarətdir? Moskva nəyi hədəfləmişdir? Ukrayna situasiyanı necə görür? Avropanın yeri hardadır? Bu sualların cavabını öncə D.Trampın "dön, Moskvaya bax" tezisinin məzmununda axtarmaq mümkündür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Naxçıvan xəbərləri

# Kredit təşkilatları ilə görüş



**Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyində Sahibkarlığın İnkişafı Fondu ilə müvəkkil kredit təşkilatları arasında görüş keçirilib. Görüşdə Nazirliyin rəhbərliyi, Sahibkarlığın İnkişafı Fondunun və müvəkkil bankların filial üzrə rəhbər şəxsləri və nümayəndələri iştirak ediblər.**

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov 2024-cü ildə iqtisadi sahədə baş verən dəyişikləri və əldə olunan nəticələri diqqətə çatdırıb, Naxçıvanın biznes mühitinin yaxşılaşdırılması, sahibkarların maliyyə əlçatanlığına rahat və sistemli çıxışının təmin edilməsi, vergi inzibatçılığının, əmək münasibətlərinin təkmilləşdirilməsi və digər sahələrdə reallaşdırılan tədbirlərin özəl sektorun inkişafına yeni imkanlar yaratdığını bildirib.

Abbas İsmayılov müvəkkil kredit təşkilatlarından gözləntilər barədə məlumat verib, real sektorun inkişafının təmin edilməsi baxımından güzəştli kreditlərin verilməsində prioritet layihələrə üstünlük verilməsinin zəruriliyini vurğulayıb.

Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin Sədri Vüsal Novruzov fondun fəaliyyətindəki yeniliklər barədə məlumat verib, qurumun 2024-cü il ərzində fəaliyyətinə və 2025-ci ildə qarşıya qoyulmuş prioritet inkişaf istiqamətlərinə dair təqdimat keçirib.

Görüş zamanı fərqlənən müvəkkil kredit təşkilatları müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb. "İri layihələrin maliyyələşməsində göstərdiyi dəstəyə görə" Azərbaycan Beynəlxalq Bankı ASC, "Sayca ən çox sahibkara göstərdiyi maliyyə dəstəyinə görə" Aqrarkredit QSC, "Sahibkarlığa genişmiqyaslı dəstəyinə görə" Bank Respublika ASC, "Sahibkarlığın maliyyələşdirilməsi sahəsində uzunmüddətli əməkdaşlığa görə" Kapital Bank ASC təltif edilib.

Görüşdə fondla əməkdaşlıq edən müvəkkil kredit təşkilatları ilə güzəştli kredit əldə etmək istəyən sahibkarlar arasında daha sıx əlaqələrin yaradılması imkanları müzakirə olunub, təkliflər dinlənilib.

# Su anbarları təmizlənir

**Cari ilin mart ayından etibarən Naxçıvan Şəhər Sukanal İdarəsi emal qurğuların istismar sahəsinin sutəmizləyici qurğular kompleksinin nəzdindəki su anbarlarının yuyularaq təmizlənməsi işlərinə start verilib.**



İdarənin mətbuat xidmətindən bildirilib ki, Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidmətinin əməkdaşları tərəfindən Emal qurğuların istismar sahəsinin sutəmizləyici qurğular kompleksinin ümumi tutumu 25 min kubmetr həcmində olan su anbarlarının 10 min kubmetri yuyulub, xlor tərkibli məhlul ilə zərərsizləşdirmə işləri aparılıb.

Hazırda İctimai Səhiyyə Xidmətinin əməkdaşlarının iştirakı ilə anbarlar təmizlənir. İşlərdən sonra anbarlar suyun keyfiyyətinə dövlət nəzarətini həyata keçirən xidmətin təqdim etdiyi arayışlar əsasında yenidən istismara buraxılacaq. Təmiz və keyfiyyətli içməli su təminatının yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlərin idarənin mərkəzi və məhəllədaxili su anbarlarında da aparılması nəzərdə tutulub.

Qeyd edək ki, içməli suyun keyfiyyətinə nəzarət üzrə "İçməli su gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" AZS 929-2023 dövlət standartının əsas tələblərindən biri anbarlarda toplanan suyun təhlükəsizliyinin təmin olunmasıdır. Bu məqsədlə hər il su anbarlarının yuyulması planı tərtib edilməli və anbarlarda nəzarət təftiş işləri aparılmalıdır.

# Tibbi xidmət yüksəlir

**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nına uyğun olaraq, muxtar respublikanın Səhiyyə Nazirliyi bir sıra işlər görür.**



Nazirliyin mətbuat xidmətindən XQ-yə bildirilib ki, Naxçıvan Sağlamlıq Mərkəzində tibbi xidmətlərin keyfiyyətini artırmaq məqsədilə bir sıra yeniliklər həyata keçirilib. Mərkəzə kardio-reanimasiya, ümumi reanimasiya və kardiocərrahiyyə üçün müvafiq olaraq 2 monitor, ümumcərrahiyyə üçün 1 monitor və transfer üçün 1 monitor avadanlığı, eləcə də cərrahi prosedurların keyfiyyətini artırmaq məqsədilə 2 cərrahi aspirator, 1 audiometriya cihazı, yenidoğulmuşlarda eşitmə qabiliyyətini müayinə etmək üçün 1 cihaz və 2 su distilliyatoru alınıb.

Yeni alınan avadanlıqlar arasında 6 bakterisid şüalandırıcı, 8 əsa, 4 camaşır arabası və tibbi tullantıların daşınması üçün 4 araba da var. Laringoskop və videolarinqoskop dəstləri, 1 ədəd radiotezlikli venoz ablasiya cihazı, 1 ədəd əməliyyat masası üçün qızdırıcı və 1 ədəd elektron nebulyazer də alınan avadanlıqlar arasında yer alır.

Qeyd edilib ki, Ailə Sağlamlıq, Onkoloji və Hemodializ mərkəzləri üçün də bir sıra avadanlıqlar alınıb. Bu mərkəzlərdə təmir işləri başa çatdıqdan sonra avadanlıqlar mərkəzlərin istifadəsinə veriləcək.

# NDU-da elmi konfrans

**Naxçıvan Dövlət Universitetində "Konstitusiya və Suverenlik İli"nə həsr olunan "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" mövzusunda I Respublika Elmi konfransı keçirilib.**

Universitetin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ali təhsil ocağının Beynəlxalq Məktəbində 4-5 mart tarixlərində keçirilən konfrans Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Xəzər Universitetinin birgə təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Təhsil, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin iştirakı ilə təşkil olunub.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev giriş sözü ilə tədbiri açıq elan edərək bildirib ki, konfrans müxtəlif əqli və məhdud fiziki imkanlı uşaqların geniş çeşidli tədris fəaliyyətlərinə cəlb edilməsinə dair aparılmış tədqiqatların müzakirə edilməsi, problemin həlli yollarına dair təkliflərin dəyərləndirilməsi məqsədi daşıyır.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

XQ-nin şərhi

# “Tramp rüsumları” qlobal qiymət bazarına necə təsir göstərəcək?

**Dünəndən Kanada və Meksika mallarına artırılan rüsumlar 25 faizə yüksəlib. Kanada enerji məhsullarına isə 10 faiz tarif tətbiq edilib. Təbii ki, bazarlar buna mənfi reaksiya verib, S&P 500 indeksi 1,8 faiz azalıb, Kanada dolları və Meksika pesosu zəifləyib. Kanada hökuməti aqrobiznes və emal məhsulları sektorunu hədəf alan 20,6 milyard dollarlıq cavab tarifləri elan edib. Meksika isə mümkün əks tədbirlər görmək zərurəti ilə üzləşib.**



Maliyyə göstəriciləri artan inflyasiya risklərindən xəbər verir: əmtəə qiymətləri indeksi 2022-ci ilin iyun ayından bəri ən yüksək həddə çatır və dövlət istiqrazlarının gəlirliyi təhlükəsiz liman aktivlərinə artan tələb fonunda aşağı düşür. Respublikaçı senator Ron Consonun biznes üçün potensial artan xərclərdən və qlobal təchizat zəncirlərinin pozulması təhlükəsindən narahatlığını ifadə etməsi də bunun bariz ifadəsidir.

ABŞ Prezidenti Donald Tramp israrla bildirir ki, tariflər ticarət balansını bərpa etmək və yerli istehsalı stimullaşdırmaq üçün alət olacaq. Bununla belə, analitiklər son məhsulların, o cümlədən avtomobillərin (bir vahid üçün 12 min dollara qədər) mümkün qiymət artımı və Şimali Amerikada ticarət əlaqələrinin sabitliyinin pozulması riski barədə xəbərdarlıq edirlər. Ekspertlərin fikrincə, Vaşinqtonun artan proteksionist siyasəti aparıcı transmilli korporasiyaların strategiyalarında düzəlişlərə və qlobal ticarət gərginliyinin artmasına səbəb ola bilər.

ABŞ prezidenti özünə məxsus “Truth” şəbəkəsində Çindən idxal olunan mallara daha 10 faizlik əlavə rüsumların tətbiq olunacağını da açıqlayıb. O daha sonra bildirib ki, Meksika və Kanadaya 1 ay güzəşt olunsa da, bu ölkələrdən ABŞ-a narkotik axını dayandırılmayıb. Narkotik Meksika və Kanadadan ABŞ-a çox yüksək və qəbuledilməz səviyyədə axmaqda davam edib. Biz təbii ki, belə bir hala, yəni bu cür pisliyin Birləşmiş Ştatlara zərər vurmasının davamlı olmasına dözə bilmərik.

Xatırladaq ki, cari il fevralın 1-də Tramp Kanada, Çin və Meksikadan gələn mallara yüksək tariflər tətbiq edən sərəncam imzalayıb. Çindən idxala 10 faizlik tariflər fevralın 4-də qüvvəyə minib, Kanada və Meksika məhsullarına rüsumlar isə həmin ölkələrin hökumətləri ilə danışıqlara görə bir ay gecikdirilib.

Fevralın 10-dan etibarən Çin ABŞ-dan kömür və mayeləşdirilmiş təbii qaz idxalına əlavə 15 faiz rüsum tətbiq etməklə cavab verib, neft, kənd təsərrüfatı maşınları, iritutumlu avtomobillər və yük avtomobilləri üzrə əlavə rüsumlar isə 10 faiz dərəcəsi ilə təyin edilib. Cavab olaraq Tramp apreldən Çin mallarına ikiqat artıq rüsum tətbiq edəcəyini bildirib. Tramp Avropa İttifaqını da tənqid edərək, oradan malların idxalına 25 faiz rüsum tətbiq olunacağını da açıqlayıb. Bundan əlavə, martın 12-dən etibarən bütün ölkələrdən alüminium idxalına 25 faizlik rüsum tətbiq olunub.

ABŞ prezidentinin bu addımları qlobal ticarət sistemində çox böyük və radikal dəyişikliklərə zəmin yaradır. Analitiklərə görə, yaxın aylar ərzində xammal bazarlarında qiymətlərin kəskin enişi fonunda qızılın qiymətinin yüksəlişi, eyni zamanda, yeni ixrac marşrutlarının formalaşdırılması istiqamətində fəal hərəkətlilik müşahidə olunacaq.

Bir daha xatırladaq ki, ABŞ Prezidenti Donald Trampın imzaladığı fərmana əsasən, Kanada və Meksikadan gətirilən məhsullara 25 faiz, Çindən idxal olunan mallara isə 10 faiz rüsum tətbiq edilib. Ekspertlər tərəfindən bu qərarın nəticələrinin müxtəlif sahələrdə fərqli şəkildə özünü göstərəcəyi bildirilib.

İdxal tariflərinin artırılması, ilk növbədə, xarici məhsulların ABŞ bazarında daha baha satılmasına gətirib çıxaracaq. Bu, xüsusilə gündəlik istifadə olunan istehlak mallarında, texnoloji avadanlıqlarda və avtomobil sektorunda özünü göstərəcək. Nəticədə, amerikalı istehlakçılar daha yüksək qiymətlərlə üzləşəcək, bu isə alıcılıq qabiliyyətini azaldacaq.

Ekspertlərə görə, tarif artımları Kanada, Meksika və Çin kimi əsas ticarət tərəfdaşları ilə münasibətləri gərginləşdirə, ABŞ-nin qərarına cavab olaraq öz idxal tariflərini artıra və ya ABŞ məhsullarına qarşı sanksiyalar tətbiq edə, xüsusilə Çinlə “ticarət müharibəsinin” dərinləşməsi ABŞ-nin kənd təsərrüfatı və texnologiya sahələrinə mənfi təsir göstərə bilər.

Tariflərin artırılması bir tərəfdən yerli sənayeləri qorumaqla yeni iş yerlərinin yaradılmasına, digər tərəfdən xarici malların qiymət artımı nəticəsində xərclərin yüksəlməsinə və istehsalın azalmasın, hətta bəzi sahələrdə iş yerlərinin itirilməsiniə səbəb ola bilər. Xüsusilə idxaldan asılı olan sahələrdə mənfi təsirlər gözlənilir.

ABŞ-ın bu addımı ilə qlobal ticarət sistemində qeyri-sabitliyin yaranması da gözlənilir. Belə ki, Dünya Ticarət Təşkilatının qaydalarına zidd olaraq tətbiq edilən yüksək tariflər beynəlxalq bazarlarda inamın azalması və ticarət münaqişələrinin artması ilə nəticələnəcəyi bildirilir.

Tariflərin artırılmasının müsbət tərəfi isə odur ki, yerli istehsalçılar xarici rəqabətdən qorunur. Bu qərar ABŞ-da fəaliyyət göstərən sənaye sahələrinə, xüsusilə polad, alüminium və avtomobil istehsalçılarına fayda verə bilər. Yerli məhsulların rəqabət qabiliyyəti artdığından, bu sahələrdə istehsal genişlənə və yeni iş yerləri açıla bilər.



Ekspertlər bildirirlər ki, Trampın alüminium idxalına əlavə rüsum tətbiq etməsi Azərbaycanın bu məhsul ixracatçıları üçün ciddi problemlər yaradacaq. Ötən il Azərbaycandan ABŞ-a 11 min tondan yuxarı alüminium məmulatları ixrac olunub. Digər tərəfdən, ABŞ-ın Venesuela neftini dünya bazarına qaytarmaq üçün hərəkətə keçməsi Azərbaycanın əsas ixrac məhsulunun sürətlə dəyərsizləşməsi, valyuta gəlirlərinin kəskin şəkildə azalması ilə nəticələnə bilər.

Prezident Donald Trampın dünya alüminium bazarında ciddi narahatlığa səbəb olan qərarına münasibət bildirən ekspertlərə görə, bu, ilk növbədə, istehsalçı ölkələrin ixrac coğrafiyasına öz təsirini göstərəcək. Xatırladaq ki, ölkəyə bütün mənbələrdən idxal olunan alüminiuma 25 faizlik əlavə rüsum tətbiqinə dair qərarından sonra Avropa İttifaqı Rusiyadan ilkin alüminium idxalına qadağa tətbiq edib. Belə bir vəziyyət isə hər bir ixracatçını çevik qərarlar çıxarmaq zərurəti ilə üzləşdirib.

Burada ekspertlərin bir fikrini də xatırlatmaq yerinə düşərdi. Belə ki, təhlilçilər dünya alüminium bazarında ciddi narahatlığın bu məhsulun ixracatçısı olan ölkə kimi Azərbaycan bazarına da təsirsiz ötüşməyəcəyini bildirirlər. Rəsmi statistikaya əsasən, keçən il respublikadan 197 milyon ABŞ dolları dəyərində, təxminən, 70 min ton (2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə dəyər ifadəsində 1,3 faiz çox, həcm baxımından isə 2,2 faiz az) alüminium və ondan hazırlanan məmulatlar ixrac olunub. Cari ilin ilk ayında isə Azərbaycandan 12 milyon 425 min dollar həcmində 4 min 330 ton alüminium ixrac edilib. Halbuki 2024-cü ilin yanvar ayında respublikamızdan 15 milyon 381 min dollar dəyərində 5 min 668 ton bu növ məhsul kənara satılıb. Beləliklə, alüminium ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2 milyon 950 min dollar və ya 19,2 faiz, miqdar ifadəsində isə 1338 ton, başqa sözlə, 23,6 faiz azalıb.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, keçən il respublikamızdan okeanın o tayına 31 milyon 230,85 min dollar dəyərində 10 821,43 ton alüminium ərintilərindən qalınlığı 0,2 millimetrdən çox olan düzbucaqlı plitələr, vərəqlər, zolaqlar göndərilib. Ümumiyyətlə, digər alüminium məmulatları ilə birlikdə ABŞ-a cəmi ixrac 11 min tondan yuxarı olub.

Yeri gəlmişkən, ABŞ Türkiyədən sonra Azərbaycanın ən çox alüminium məmulatı ixrac etdiyi ölkədir. Sonrakı yerlərdə isə Gürcüstan, Özbəkistan, Qazaxıstan və Ukrayna qərarlaşır.

Son illərdə alüminium ixracında qeydə alınan artım istehsalın da artmasını stimullaşdırıb. Belə ki, 2024-cü ildə Azərbaycanda 63 min 278,2 ton alüminium məmulatları istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu göstərici 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18 min 194,5 ton və ya 40,4 faiz çoxdur. 2023-cü ildə ölkədə 45 min 83,7 ton alüminium məmulatları istehsal edilmişdi. Ötən Azərbaycanda 63 min 278,2 ton alüminium məmulatları istehsalı olunub.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu göstərici 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18 min 194,5 ton və ya 40,4 faiz çoxdur. Belə ki, 2023-cü ildə ölkədə 45 min 83,7 ton alüminium məmulatları istehsal edilmişdi. Bu ilin yanvarın 1-i vəziyyətinə Azərbaycanda hazır məhsul ehtiyatı 3 min 856 ton təşkil edib. Bu da illik müqayisədə 19,9%, başqa sözlə 960,1 ton azdır.

Yeri gəlmişkən, Azərbaycanda alüminium sənayesinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir və bu sahənin istehsal potensialının artırılması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirilir. Təbii ki, bütün bunlar mövcud sahədə alüminium istehsalında yüksək göstəricilərin əldə edilməsi ilə nəticələnir.

Əlbəttə, belə bir vəziyyət məhsulun alıcı probleminin həllinə marağı artırır və ABŞ-ın sözügedən addımları ilə bağlı dünya bazarına böyük təsir edəcək ciddi çağırışlar formalaşdırır. Fikrimizcə, bu, eyni zamanda, Azərbaycanın ən böyük alüminium istehsalçısı olan “Azəralüminium” MMC-nin ixracla bağlı alternativ addımlar atmağa sövq edir. Yeri gəlmişkən, adıçəkilən MMC mövcud vəziyyətlə bağlı mediada yaydığı məlumatında hazırda “Azəralüminium”da məhsul satışı ilə əlaqədar ixrac bazarında yaşanan hadisələri diqqətlə müşahidə etdiyini bildirir.

Qeyd edilir ki, ABŞ ölkəmizin alüminium məhsullarına olan tələbatına hər zaman həssaslıqla yanaşıb. Lakin indiki şəraitin doğurduğu çətinliklərlə təkcə respublikamız deyil, ABŞ-ın qonşu ölkələri olan Meksika və Kanada da üzləşib. Buna görə də Azərbaycan ixrac problem yarandığı ilk günlərdən etibarən adları çəkilən dövlətlərlə əməkdaşlıq münasibətləri yaradaraq mövcud vəziyyətdən çıxış yolunun axtarılması ilə bağlı müzakirə aparılmasını diqqət mərkəzində saxlayıb, altenativ bazar imkanlarının tapılmasına xüsusi önəm verib.

Burada bir məqama da toxunmaq istərdik. Bir müddət bundan əvvəl ABŞ dövlət katibi Marko Rubio sosial şəbəkə hesabında Co Bayden administrasiyasının vaxtilə Venesuelanın neft-qaz ixracına qarşı tətbiq etdiyi sanksiyaların aradan qaldırılacağını bəyan edib. İqtisadçı-ekspert Elman Sadıqov bununla bağlı deyib: “Tramp administrasiyasının bu addımı atacağı gözlənilən idi. ABŞ-ın neftin qiymətini aşağı salmaq üçün, ilk növbədə, Venesuela neftinə qoyulan sanksiyaları ləğv etmək, öz şist neft istehsalını genişləndirməklə yanaşı, Liviya və İraq neftinin istehsalını genləndirmək əsas vəzifələrdən hesab edilirdi. Lakin bütün bunları kənara qoyub bircə Venesuela neftinin (303 milyard barellik neft ehtiyatlarının həcminə görə, dünyada 1-ci yerdədir) dünya bazarlarına çıxışını reallaşdırsa, neftin bir barelinin qiyməti ən yaxşı halda 50 dollar olar. Çünki Venesuela neftinin maya dəyəri şist neftdən də çox aşağıdır.

Artıq ABŞ gözlənilən addımı atır. Marco Rubio öz sosial şəbəkə hesabında bu addımın atılacağı anonsunu verdi. Yəqin ki, ABŞ burada da Ukraynada olduğu kimi, Venesuelaya da investisiya qoyuluşu edərək şərik olacaq. Hər bir halda, hələ nəzərdə tutulan tariflərin 10 faizi tətbiq olunmayıb, inflyasiya təzyiqi ABŞ-da özünü göstərməyə başlayıb. ABŞ enerji qiymətlərini çökdürməklə artacaq inflyasiyanı kompensasiya etməyə çalışacaq”.

***“Xalq qəzeti”nin analitik qrupu***

## Ekspert rəyi

**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**



Hazırda Amerika Birləşmiş Ştatları özünün iqtisadi inkişafının elə bir səviyyəsinə gəlib çatmışdır ki, bu ölkənin iqtisadiyyatında baş verən istənilən neqativ və ya pozitiv dəyişikliklər dünyanın digər dövlətlərinə də birbaşa təsir göstərir. Məlum olduğu kimi, bu gün ABŞ-ın 36 trilyon dollardan çox borcu var. 27, 8 trilyon dollarlıq ÜDM-ə sahib olan bir ölkənin bu məbləğdə borcu, təbii olaraq, özlüyündə çox ciddi bir fəsadların yaranma ehtimalını ortaya qoyur. ÜDM-dən bu qədər artıq bir borc, heç şübhəsiz, ciddi risklər ortaya qoyur. Həmin risklərlə bağlı təkcə ABŞ hökuməti deyil, digər ölkələr də qayğılanmalıdır.

Doğrudur, Amerika Birləşmiş Ştatları dünyanın 1 nömrəli iqtisadiyyatına sahibdir. Bütün hallarda ABŞ iqtisadiyyatının böyüməsinin əsas səbəbi borclanma amilidir. Bu ölkə məhz borclanma hesabına iqtisadi cəhətdən getdikcə böyüməkdədir. Borclanmanın rahat olmasının əsas səbəbi isə ABŞ-ın dünyanın bir nömrəli iqtisadi gücü kimi tanınması ilə bağlıdır. Eyni zamanda, dünyanın əsas valyutasına sahib olmasıdır ki, nəticədə hər bir ölkə ABŞ-a borc verməyə hazırdır. Bununla yanaşı, hazırda heç bir özəl təsərrüfat subyekti ABŞ-ın istənilən özəl təsərrüfat subyektinə borc verməkdən çəkinmir. Lakin bu borclar ABŞ hökumətini narahat etdiyi üçün daha ciddi addımların atılmasına zərurət yaranır. Həmin addımlardan biri də ticarətdə olan fərqin aradan qaldırılmasından ibarətdir. Yəni idxal və ixrac arasında olan, Amerikanın xeyrinə olmayan bu göstəricilərin aradan qaldırılmasıdır. Bu gün ABŞ-ın, təxminən, 5,3 trilyon dollarlıq ticarət dövriyyəsi var. Bunun 2 trilyon dolları ixracın, 3,3 trilyon dolları isə idxalın payına düşür. Deməli, ticarət kəsiri 1,3 trilyon dollar təşkil edir. Çində isə bu rəqəm 1 trilyon dollar ölkənin öz xeyrinədir. Bu o deməkdir ki, Çin xarici ticarətdə 1,3 trilyon dollar udduğu halda, ABŞ bu göstərici üzrə 1,3 trilyon dollar uduzur.

Göründüyü kimi, bu göstəricilər arasında artıq 2 trilyon dollardan çox bir fərq mövcuddur. Ticarət dövriyyəsində olan mənfi saldonun aradan qaldırılması üçün isə iki yol vardır: ya idxal azaldılmalı, ya da ixrac artırılmalıdır. Baxaq, görək, ABŞ ixracı artıra bilirmi? Ölkə hazırkı vəziyyətdə potensial olaraq 2 trilyon dollarlıq ixrac həyata keçirə bilir. Yəni bunu 50 faiz artırmaq mümkün deyil. Bəs, idxalı necə, azalda bilirmi? Xeyr! Çünki inkişaf etmiş ölkə idxal məhsullarından çox asılıdır. Bu, iqtisadiyya ciddi mənfi təsir göstərə bilər. Buna görə idxalı azaltmaq, ixracı isə artırılmaq olmur. Bəs, belə olan təqdirdə nə etmək lazımdır? Yeganə yol tarif siyasəti ilə daxilolmaları artırmaqdır. Yəni idxalın özündən belə, mənfəət götürməkdir. Amma burada da, təbii ki, fəsadlar olacaq. Çünki hazırda Kanada, Meksika və Çinin ABŞ-ın ümumi ticarət dövriyyəsindəki payı 42 faiz təşkil edir. Eyni zamanda da, 1,3 trilyon dollarlıq ticarət kəsirində bu üç ölkədən olan kəsirin payı 46 faizdir.

ABŞ Prezidenti Donald Tramp bu 3 ölkəyə fərqli münasibət sərgiləyib. 2023-cü ildə Kanadadan 432 milyard dollar, Meksikadan 480 milyard dollar və Çindən isə 449 milyard dollar mal və xidmətlər idxal edib. ABŞ ticarət dövriyyəsində 40 faizdən çox bir paya sahib olub. Ticarətdə Çinlə bağlı vəziyyət daha acınacaqlıdır–300 milyard dollarlıq bir ticarət defisiti var. Bu baxımdan Çinə tətbiq edilən tarif göstəricilərin mənfi təsirlərini indidən aydın təsəvvür etmək olar. Onu da deyim ki, bu tatiflər ABŞ-ın iqtisadiyyatına da mənfi təsir göstərəcək.

ABŞ-ın ölkələrə tətbiq etdiyi tariflər inflyasiyanı da sürətləndirəcək, məhsul istehsalında qiymət artımına gətirib çıxaracq, çox şübhəsiz ki, bu, ölkəmizdə də hiss olunacaq.

Venesuela neftinin bazarlara çıxarılması isə təbii ki, dünya bazarlarında neftin qiymətinin inanılmaz həddə enəcəyinə gətirib çıxaracaq. Bu isə Azərbaycan kimi ölkələr üçün heç də əlverişli deyil. Çünki ölkəmizin inkişafı neft amilindən asılıdır və belə halda ölkəyə valyuta axını zəifləyir, büdcə daxilolmaları azalır və iqtisadiyyatın digər sektorlarında inkişaf ləngiyir. Eyni zamanda, ixrac bazarlarında qiymət dəyişikliyi baş verir.

# Orta Dəhliz: Şərqdən Qərbə ən qısa yol



**Son illər bir sıra beynəlxalq enerji və nəqliyyat-logistika layihələrinin əsas təşəbbüskarı və iştirakçısı olan Azərbaycan Respublikası regional məsələlərin müzakirəsində də xüsusi fəallığı ilə seçilir. Bu da regionun sülh və əməkdaşlıq məkanına çevrilən ölkəmizin beynəlxalq nüfuzunu getdikcə artırır.**

Avropa İttifaqı ilə enerji sahəsində fəal əməkdaşlıq edən Azərbaycan ümumi inkişaf və tərəqqiyə xidmət edən beynəlxalq səviyyəli nəqliyyat layihələrini də dəstəkləyir, onların reallığa çevrilməsində yaxından iştirak edir. Bu baxımdan yeni əsrin əsas nəqliyyat marşrutlarından sayılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) xüsusi qeyd edilməlidir. Uzaq Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən multimodal nəqliyyat dəhlizi olan Orta Dəhliz iştirakçı dövlətlərin, o cümlədən Azərbaycanın iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsidir.

İqtisadi baxımdan səmərəli olduğu kimi, siyasi cəhətdən də xüsusi əhəmiyyət kəsb edən Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə olunan məsələlərdəndir. Sözügedən nəqliyyat dəhlizinin işinin canlandırılması istiqamətində həyata keçirilən istənilən tədbir isə layihəyə marağı getdikcə artırır.

Martın 4-də Bakıda keçirilən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının iclası da bu baxımdan diqqət çəkir. Assosiasiyaya üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri, nəqliyyat və logistika şirkətlərinin yüksək səviyyəli rəsmiləri də daxil olmaqla, ümumilikdə, 10 ölkədən nümayəndə heyətlərinin iştirak etdikləri toplantıda Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun regional nəqliyyat bağlantısının əsas arteriyalarından biri kimi yüksəlişdə olduğu diqqətə çatdırılıb.

Ötən müddətdə assosiasiyaya üzv dövlətlər arasında sıx əməkdaşlıq çərçivəsində yük əməliyyatlarının idarə olunması üçün kompleks tədbirlərin həyata keçirilməsinin, o cümlədən müasir analitik informasiya sistemlərinə inteqrasiya və yüklərin real vaxt rejimində izlənməsi xidmətlərinin yaradılmasının əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, qarşıda duran əsas vəzifə yüklərin təhlükəsizliyini təmin etməklə, vahid tarifləri razılaşdırmaqla və yük axınının sürətini artırmaqla daşıma sisteminin səmərəliliyini artırmaqdır ki, bu da bütün tərəfdaşların tələbatını qarşılamaqla yanaşı, Orta Dəhliz ölkələrinə uzunmüddətli perspektivdə uğur qazanmağa imkan verəcək.

Müzakirələrdən sonra TBNM BA Hüquqi Şəxslər Birliyinin TBNM-in inkişafı üzrə işçi qrupunun 2025-ci il üçün təsdiqlənmiş tarif dərəcələri barədə məlumatı dinlənilib. Daha sonra Orta Dəhlizlə bu il yükdaşıma planı və onun icra planı təsdiqlənib, həmçinin TBNM BA Hüquqi Şəxslər Birliyinin Çinin Sian şəhərində nümayəndəliyinin açılması barədə qərar qəbul olunub.

Sonda iclasın protokolu təsdiqlənib, "Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında" və "Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında" sazişlər imzalanıb.

Yeri gəlmişkən, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin – Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipinin tətbiqinə başlanılıb.

## Ekspert rəyi

**Təbriz YADİGAROV,
Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun
aparıcı elmi işçisi, dosent**



Çin və Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun rolu Rusiya ərazisindən keçən dəniz nəqliyyatının artan siyasi riski fonunda getdikcə artır. Rusiya – Ukrayna müharibəsi ilə əlaqədar Qərbin tətbiq etdiyi sanksiyaların Şimal qonşumuzun Avropanın dəmir yollarına çıxışının məhdudlaşdırması səbəbindən Orta Dəhliz vasitəsilə yükdaşımalar xeyli intensivləşib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü Transxəzər marşrutu ilə yükdaşımaların həcmi 63 faizdən çox artaraq 4,5 milyon tona çatıb. 2027-ci ilə qədər isə bu rəqəmin 10 milyon tona çatdırılacağı proqnozlaşdırılıb.

Məlum olduğu kimi, Orta Dəhlizin çoxtərəfli multimodal nəqliyyat infrastrukturu Xəzər və Qara dənizlərinin bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu sistemləri ilə birləşdirir. Bu baxımdan Xəzərdə daha çox barjların olması, eləcə də Gürcüstanın Qara dənizdəki konteyner limanlarında ötürmə qabiliyyətinin artırılması, Orta Dəhliz boyunca dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Qazaxıstan, Azərbaycan və Gürcüstan üçün tranzit marşrut kimi həlledici rol oynayan Orta Dəhlizin əsas çətinliyi intermodal daşımaların olmaması və onun bahalığı ilə əlaqədardır.

Dəhlizin yükdaşıma əməliyyatlarının səmərəliliyinin artırılması və mövcud problemlərin aradan qaldırılması üçün regional yanaşmanın işlənib hazırlanması məqsədilə keçirilən beynəlxalq tədbirlər bu istiqamətdə öz töhfəsini verməkdədir. Orta Dəhlizi əhəmiyyətli dərəcədə təkmilləşdirmək üçün tələb olunan ümumi investisiya, təxminən, 18,5 milyard avro həcmində qiymətləndirilir. Bu investisiya ehtiyacları Mərkəzi Asiyanın bütün beş ölkəsində polad magistralları və avtomobil yolları şəbəkəsinin bərpası, modernləşdirilməsi, heyətin genişləndirilməsi, limanların ötürücülük qabiliyyətinin artırılması, sərhəd-keçid məntəqələrinin, multimodal logistika qovşaqlarının və köməkçi şəbəkə birləşmələrinin təkmilləşdirilməsi ilə bağlıdır.

Avropa və Asiya qitələri arasında quru nəqliyyat dəhlizlərinin tədqiqinə əsasən, son 10 ildə Avropa İttifaqı ilə Mərkəzi Asiya arasında ümumi ticarət 38,8 faiz artıb. Avropa İttifaqı məkanının idxal etdiyi əsas mallar mineral məhsullar, adi metallar və onlardan hazırlanan məmulatlar, kimyəvi maddələr və əlaqədar məhsullardır. Avropa İttifaqının Mərkəzi Asiyaya ixracının əsasını isə maşın və avadanlıqlar, kimya və ya əlaqəli məhsullar, eləcə də nəqliyyat hissələridir.

Yeri gəlmişkən, Azərbaycanla, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Çin, Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumıniyanın əlaqədar qurumlarının nümayəndələrinin iştirakı ilə Bakıda keçirilən "Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağında qurumun işçi qrupunun 2024-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat, ötən il üzrə ümumi yükdaşımalar, eyni zamanda, cari il üçün yükdaşıma planı məsələləri ilə bağlı müzakirələr aparılıb. Söylənən mülahizə və təkliflər Orta Dəhlizin səmərəliliyinin artırılmasında, bu marşruta daha çox yük axınının cəlb olunmasında, gömrük tariflərində, Xəzər dənizi limanları arasında fider bağlantısının təşkilində, eləcə də fider gəmilərin yüklənməsinin təmin edilməsində və intermodal daşımalarla bağlı problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaq.

Bütün bunlar gələcəkdə Orta Dəhliz üzrə yükdaşımaların ümumi həcminin artmasına imkan yaratmaqla yanaşı, regional əməkdaşlığı daha da gücləndirəcək, Zəngəzur nəqliyyat-logistika dəhlizinin reallaşdırılmasını şərtləndirəcək.

**"SOCAR Türkiye" və "Siemens Türkiye" şirkətləri İzmirin Əliağa bölgəsində yerləşən "Petkim" neft-kimya kompleksinin enerji infrastrukturunun modernləşdirilməsi üzrə birgə layihəni uğurla başa çatdırıblar. Bu barədə "SOCAR Türkiye" şirkəti məlumat yayıb.**



# "SOCAR Türkiyə" investisiya fəaliyyətini genişləndirir

## *Şirkətin istehsal etdiyi 60-a yaxın məhsul 48 ölkəyə ixrac olunur*

Məlum olduğu kimi, iki qurum arasında əməkdaşlığın təməli 2017-ci ildə qoyulub. Həmin il "SOCAR Türkiye" və "Siemens Türkiye" şirkətləri 18 zavodun enerji sistemlərinin yenilənməsi ilə bağlı razılıq əldə ediblər. 2021-ci ildə isə tərəflər layihənin daha da inkişaf etdirilməsi üçün 5 illik saziş imzalayıblar.

"SOCAR Türkiye" şirkətinin məlumatına görə, ötən müddətdə modernləşdirmə işləri çərçivəsində 150-yə yaxın orta gərginlikli panel dəyişdirilib, aşağı gərginlikli panellər yenilənib və SCADA sistemləri tətbiq edilib. "Bu addımlar enerji təchizatının etibarlılığını, müəssisələrin səmərəliliyini və təhlükəsizlik standartlarını artırıb. 2024-cü ildə tərəflər elektrik sistemlərinin təhlili və gələcək investisiya ehtiyaclarının müəyyənləşdirilməsinə yönəlmiş "Petkim Electrical Health Check" layihəsinə start veriblər", – deyə məlumatda qeyd olunur.

"Siemens Türkiye" şirkətinin idarə heyətinin sədri və baş icraçı direktoru Hüseyin Gelis "SOCAR Türkiye" ilə tərəfdaşlığın təkcə enerji infrastrukturunun modernləşdirilməsinə deyil, həm də rəqəmsal transformasiyaya, istehsalın səmərəliliyinin artırılmasına və ətraf mühitə təsirin azaldılmasına töhfə verdiyini bildirib. "Siemens Türkiye"nin elektrikləşdirmə və avtomatlaşdırma departamentinin rəhbəri Cengiz Bozbey isə deyib ki, 60 ildən artıq fəaliyyət göstərən şirkətlər üçün modernləşmə zərurətdir. Onun sözlərinə görə, "SCADA sisteminin və "Siemens"dən müasir enerji həllərinin tətbiqi əməyin mühafizəsi və təhlükəsizliyi standartlarını yaxşılaşdırmaqla yanaşı, neft-kimya proseslərini daha etibarlı və intellektual vəziyyətə gətirib.

Bununla yanaşı, "SOCAR Türkiye"nin neft emalı və neft-kimya bölməsinin rəhbəri və "Petkim"in baş icraçı direktoru Kənan Mirzəyev qeyd edib ki, "Siemens Türkiye" ilə əməkdaşlıq şirkətin dayanıqlı inkişaf və enerji səmərəliliyi strategiyasına uyğundur: "Petkim" Türkiyənin ilk və yeganə inteqrasiya olunmuş neft-kimya şirkəti kimi 60 ildir bu sahədə mühüm rol oynayır. Ekoloji təmiz texnologiyalara və enerji səmərəliliyinə investisiyalarımız dayanıqlı inkişafa töhfə verir. "Siemens Türkiye" ilə tərəfdaşlıq təkcə şirkətlərimiz üçün deyil, bütün sektor üçün oriyentir rolunu oynayan bu baxışın parlaq nümunəsidir".

Qeyd edək ki, layihə çərçivəsində "Petkim"in müəssisələrində 500-dən çox mütəxəssis çalışıb. Məhz onların səyi nəticəsində modernləşdirmə layihəsi çərçivəsində yüksək icra standartları təmin edilib. Eyni zamanda, "SOCAR Türkiye"nin rəsmi tərəfdaşı olan "Siemens Türkiye" təhlükəsizliyin yaxşılaşdırılmasına və enerji itkilərinin minimuma endirilməsinə mühüm töhfə verib. Bu da iki şirkət arasında strateji tərəfdaşlığı daha da gücləndirməklə yanaşı, gələcək innovativ təşəbbüslərə geniş meydan açır.

Yeri gəlmişkən, "Petkim" şirkəti Türkiyənin ilk və yeganə inteqrasiya olunmuş neft-kimya müəssisəsidir. Şirkətin əsası 1965-ci ildə qoyulub. 1970-ci ildə özündə 5 fabriki birləşdirən "Petkim" sonralar onların sayını xeyli artırıb. Hazırda şirkət Türkiyənin neft-kimya məhsullarına olan ehtiyacının, təxminən, 10,8 faizini qarşılayır. "Petkim"in 15 əsas istehsal müəssisəsinin maksimum istehsal gücü 3,6 milyon ton təşkil edir. Həmin müəssisələrdə inşaat, əkinçilik üçün gübrələr, avtomobil, elektrik-elektronika, paketləmə, tekstil, kosmetika, dərman preparatları boyalar və s. olmaqla, ümumilikdə, 60-a yaxın müxtəlif çeşiddə məhsul istehsal edilir. 2024-cü ildə "Petkim"in müəssisələrində istehsalın həcmi 2 milyon tona çatıb. Hazırda şirkətin istehsalı olan məhsullar dünyanın 48 ölkəsinə ixrac olunur. Ötən il "Petkim liman" modernləşdirmə layihəsinə 70 milyon dollar, "Petkim tullantı su qurğusunun inkişafı" layihəsinə isə 20 milyon dollar sərmayə qoyulub.

# Ölkəmizdə "yaşıl" enerji kompleksi formalaşır

## *Alternativ gücün saxlanması üçün yeni layihə gerçəkləşdirilir*

**Azərbaycan hökumətinin bərpaolunan enerji sahəsində əsas tərəfdaşlarından olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ölkəmizdə fəaliyyətini getdikcə genişləndirir. Şirkət Azərbaycan hökuməti ilə birlikdə akkumulyator enerji saxlama sistemi layihəsinin növbəti mərhələsinin həyata keçirilməsi üzərində işini davam etdirir.**



Bu barədə yerli mətbuata "ACWA Power"in Azərbaycandakı biznesin inkişafı üzrə direktoru Polina Lyubomirova məlumat verib. Şirkət rəsmisi layihənin inkişafında irəliləyişə nail olmaq üçün Azərbaycanın Energetika Nazirliyi, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ilə sıx əməkdaşlıq etdiklərini bildirib. O, Azərbaycan üçün strateji əhəmiyyət daşıyan bu təşəbbüsün bərpaolunan enerji sektorunun genişləndirilməsi baxımından müstəsna rolunu vurğulayıb.

P.Lyubomirova qeyd edib ki, "ACWA Power"in kompleks biznes modeli sayəsində şirkət enerji saxlama sahəsində əhəmiyyətli əlavə dəyər yaradır və hazırda istismar, tikinti və müqavilə bağlanması mərhələsində olan layihələrin ümumi tutumu dünya üzrə, təxminən, 6 qiqavat-saata çatır. O, həmçinin təmsil etdiyi şirkətin genişmiqyaslı enerji layihələrinin işlənib hazırlanması, maliyyələşdirilməsi, tikintisi və istismarı, eləcə də şəbəkə tezliyinin tənzimlənməsi, texniki dəstək və qabaqcıl həllərin tətbiqi sahəsindəki zəngin təcrübəsinə əsaslanaraq, bilik və bacarıqlarını Azərbaycanla bölüşməkdən məmnunluğunu diqqətə çatdırıb.

Yüksək sürətli akkumulyator enerji saxlama sistemlərinin artıq bütün dünyada geniş tətbiq olunduğunu xatırladan şirkət rəsmisi bu baxımdan Azərbaycanın enerji sistemi üçün də batareya əsaslı enerji saxlama həllərinin tətbiqinin iqtisadi cəhətdən səmərəli olduğunu diqqətə çatdırıb. "Bu sistemlər neft və qaz istehlakını, ümumilikdə isə, bərpaolunan enerji mənbələrindən alınan külək və günəş enerjisində yaranan dalğalanmaları tarazlaşdırmaq üçün istifadə edilən fosil yanacaqların həcmini azaltmağa imkan verir. Hazırda biz hökumətlə birlikdə layihənin növbəti mərhələsinə keçidlə bağlı işlər aparırıq", – deyə o əlavə edib.

Xatırladaq ki, Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasında 200 meqavat gücündə akkumulyator enerji saxlama sistemi layihəsinin həyata keçirilməsi ilə bağlı saziş 2024-cü ilin may ayında imzalanıb.

# "OPEC plyus" neft hasilatını artıracaq

**"OPEC plyus" ölkələri gələn aydan neft hasilatını artırmağa başlayacaqlar. Bu barədə məlumat OPEC-in son açıqlamasında yer alıb.**

Bildirilib ki, hasilat məhdudiyyətlərindən mərhələli çıxış 2025-ci ilin aprelindən 2026-cı ilin sentyabrına qədər davam edəcək. "OPEC plyus", həmçinin etiraf edib ki, hasilatın artımı dayandırıla bilər. Bununla yanaşı, təşkilat ölkələri bazardakı vəziyyətdən asılı olaraq yenidən ixtisarlara qayıtmaq imkanını nəzərdən keçirə bilərlər. Ümumilikdə isə, "OPEC plyus" ölkələri hasilatın kompensasiyası ilə bağlı yenilənmiş planlarını martın 17-dək qurumun katibliyinə təqdim edəcəklər.




Xatırladaq ki, 2024-cü il noyabrın 3-də "OPEC plyus" alyansının 8 üzv ölkəsi gündəlik 2,2 milyon barel könüllü hasilat düzəlişlərini daha bir ay müddətinə uzadacaqlarını elan etmişdilər. Onlar neft qiymətlərinin aşağı düşməsi tendensiyasına cavab olaraq bildirmişdilər ki, ixtisarlar dekabrın sonuna qədər davam edəcək.

Yeri gəlmişkən, adıçəkilən alyansa Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və onun müttəfiqləri daxildir. İxtisarla bağlı razılığa imza atan ölkələr isə Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Vaqif Mustafazadə – 85

# Azərbaycan caz ulduzunun irsi Vyananı heyran qoydu

**Avstriya paytaxtındakı Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli caz pianoçusu və bəstəkar, ölkəmizdə caz musiqisinin banilərindən biri Vaqif Mustafazadənin 85 illiyinə həsr olunmuş etno-caz konserti təşkil edilib.**



Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova giriş sözündə Vaqif Mustafazadənin həyat və yaradıcılığına nəzər salıb. Qeyd edilib ki, muğam-caz janrının yaradıcısı kimi tanınan Vaqif Mustafazadənin Azərbaycan musiqi tarixində özünəməxsus yeri var, onun əsasını qoyduğu musiqi istiqaməti və ifa tərzi ölkəmizin hüdudlarından uzaqlarda da şöhrət tapıb və bu gün də müxtəlif musiqiçilər tərəfindən uğurla davam etdirilir. Bu gün müasir Azərbaycan caz ifaçılığının inkişafını Vaqif Mustafazadə olmadan təsəvvür etmək mümkün deyil.

Bədii hissədə Azərbaycan caz ifaçıları Sonai (vokal), Tural Rafael (fortepiano) və Ələfsər Rəhimov (balaban, zurna və tütək) konsert proqramı ilə çıxış ediblər. Konsertdə Vaqif Mustafazadə ilə yanaşı, digər Azərbaycan bəstəkarlarının repertuarından əsərlər, eləcə də xalq mahnıları və rəqsləri ifa edilib. Tural Rafael və Ələfsər Rəhimovun bəstələdiyi kompozisiyalar, Sonainin məlahətli səslə ifa etdiyi “Könlümün yadigarı”, “Laylalar”, “Bana, bana gəl”, “Pıçıldaşın ləpələr”, “Çiçək kimi”, “Girdim yarın bağçasına” kimi bəstəkar və xalq mahnıları böyük maraq və sürəkli alqışlarla qarşılanıb.

***XQ***

Əli Quliyev (Urfan) – 75

# Sazın, sözün çağdaş ustadı

**“Ürfan Əli” təxəllüsü ilə tanınan Əli Abuzər oğlu Quliyev Tovuzun Əlimərdanlı kəndindəndir. O bölgənin saz-söz mühitinin yetirdiyi aşıq 8 yaşından könlünü bu sənətə verib, 25 yaşından isə müstəqil aşıqlıq etməyə başlayıb. Düz 50 ildir ki, telli saz sinəsindən düşmür.**



Ustad aşıq və şair kimi tanınan sənətkarın ifasında özünəməxsus şəkildə səslənən “Dilqəmi” havasını dinləyə-dinləyə, öz diliylə “Bir də çal” deyə-deyə bu qeydləri yazıram.

**Yaz kövrələr, payız ağlar, qış mələr,**
**Bu möhnətə dağ inildər, daş mələr.**
**Yoxsul qaldı qaynar gözlü çeşmələr,**
**Nakam eşqin ələmini bir də çal.**

Ürfan Əli İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirsə də, bədiyyatın – sazın, sözün memarı olmağa üstünlük verib. Tovuzda Hüseyn Bozalqanlı adına Ozan-aşıq Muzeyinin ilk direktoru olub. Azərbaycanın ən güclü solo saz ifaçılarından sayılır. “Dilqəmi”, “Ruhani” saz havaları onun ifasında Azərbaycan Televiziyası və Radiosunun Qızıl Fonduna salınıb. İran, İraq, Türkiyə, Hollandiya, Belçika və s. xarici ölkələrdə çıxışlar edib.

“Sözdən pənah gətirmişəm”, “Sazlı-sözlü dünyam”,“Tanrı payı telli sazım”, “Qəm daşıyan dərviş oldum” kimi kitabları könül duyğularının çələngidir.

Azərbaycanın Əməkdar mədəniyyət işçisi (2008) Ürfan Əli deyir ki, aşıqlıqdan əl çəkmək ömrümün tamamlanması deməkdir:

**Mən Əliyəm, “Ya Hu” deyib neylərəm –**
**Minib eşqin səməndini teylərəm.**
**Cəhənnəmi cənnət-məkan eylərəm,**
**Bir saz ola, bir mən olam, bir də sən.**

Azərbaycan Yazıçılar Birliyi poeziya bölməsinin rəhbəri İbrahim İlyaslı:

– Günlərdən çağdaş aşıq sənətinin ən görkəmli nümayəndəsi, şeirləri ilə qədim ozan gələnəyini günümüzə yetirən canlı klassik, ustad Aşıq Əli Quliyevin (Ürfan Əlinin) 75 illik yubileyidir. Sevgi və sayğılarımı bildirir, ən xoş diləklərimi ünvanlayıram. Onun adını tutub qələmə aldığım şeirdən bir bəndi demək istəyirəm:

**Zilə qalxdı – beçə pərdə sızladı,**
**Bəmə endi – barmaqları buzladı.**
**Şah pərdədə ərəb atlar tozladı, –**
**Mənzil kəsdi bu murazın eşqinə.**

Aşığın eloğlusu, şair Ehtiram İlham da söhbətə qoşuldu:

– Aşıq Əli ünlü sənətkar olmaqla yanaşı, həm də klassik və ürfan ədəbiyyatının dərin bilicisi və yüksək poetik nümunələr yaradan tanınmış el şairidir. O, öz parlaq yaradıcılığı ilə adını aşıq-ozan sənətinin Əmrah Gülməmmədov, Mikayıl Azaflı, Hüseyn Saraclı, Kamandar Əfəndiyev, Ədalət Nəsibov, Xanlar Məhərrəmov kimi azmanları ilə bir sıraya yazdırıb. Aşıq Ədalətin adı çəkiləndə “Yanıq Kərəmi” , Cilli Müseyib xatırlananda “Orta Sarıtel” və Aşıq Xanlar deyiəndə “Baş Sarıtel” yada düşdüyü kimi, Ürfan Əlinin ismi çəkilən kimi, “Dilqəmi” havası ağıla gəlir. Ömrünün müdrik çağını yaşayan, tutiyə kimi baxdığımız əziz ustad dünya durduqca var olsun!

Şair dostumuz Həmid Ormanlı Ürfan Əlidən maraqlı bir müsahibə alaraq mətbuatda çap etdirib. O dedi:

– Əmi (Ürfan Əli) sazla qol-boyun olanda yaşının neçəliyini vecə almayan sənətkardır. “İndiyədək çaldığın havalardan ən çox hansı xoşuna gəlir?” sualına cavabı bu olub: “Məndə sonalamaq yoxdur. Sazı sinəmə alıb o havaları ki, dindirirəm, onların hamısı məndən ötrü əzizdir. Saz o zaman səndən inciyir ki, onu ürəklə sinən üstündə gəzdirmirsən. Gərək onun çəmini tapa biləsən”. Bir də etiraf edib ki, Bakıya gələndə darıxır. “Tovuzdakı cənab Əlinin qədəmgahlarının, Düldül dərəsinin, Haçaqayanın, bir dolça Əsrik suyunun, Ana Kürün qırağının, Cəfərxanənin həsrətini çəkirəm”.

Aşıq Əli həmkarlarının dinə, imana bələdliyini vacib sayır. Deyir ki, bu bələdlik olmasa, əhli-ürfanların məclisində otura bilməzdim. Orada yerim olmazdı. Tufarqanlı Abbasın, Dədə Ələsgərin, Hüseyn babamın (Bozalqanlı Aşıq Hüseynin) sözlərinə çox aydınlıq gətirmişəm ki, buna görə də dini bilgilərimə borcluyam...

Onunla bağlı kimi dindirdimsə, böyük sənətin yalnız daşıyıcısı deyil, həm də onu yeni nəfəs, yeni ruhla zənginləşdirənlərdən biri olduğunu söylədi. Əkbər Qoşalının sənətkarı şair kimi səciyyələndirməsini olduğu kimi qeyd dəftərimə köçürdüm: “Onun şeirləri yalnız klassik aşıq şeirinin çərçivəsində qalmır, ürfani dərinlikdən gələn, ilahi eşqə və insan taleyinə bağlılıq daşıyan misralarla doludur. Ustadın sənət uğurları, ona bəslənən sevgi təsadüfi deyil, o, bu yolun dərvişidir, öz sazının və sözünün ustad xidmətçisidir”.

Ürfan Əlinin böyük sənətkarlığı daim bar-bəhər verməkdədir. Onun yetirmələri də artıq neçə illərdir səhnələrdə boy verib görsənir, sənətin gələcəyini nişan verirlər. Bugünlərdə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında düzənlənən yubiley gecəsində onları görəcəyik.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “ANİMAFİLM Gəncədə”



**Mədəniyyət Nazirliyinin dəstəyi ilə 7-ci ANİMAFİLM Beynəlxalq Festivalı çərçivəsində “ANİMAFİLM Gəncədə” festivalı keçirilib.**

İki gün ərzində Gəncə Dövlət Kukla Teatrında festivala 500-dən çox tamaşaçı qatılıb və onlar 15 filmi izləyərək səsvermədə iştirak ediblər. “Narqız” (rejissor Məsud Pənahi, Azərbaycan), “Pomidor” (rejissor Petre Tomadze, Gürcüstan) və “Vəhşi heyvan” (rejissor Tianyun Lyu, Çin) filmləri qalib elan olunub.

Hər nümayişdən sonra tamaşaçılarla geniş müzakirələr təşkil edilib. Müzakirələrin moderatoru prodüser, rejissor İntiqam Hacılı olub, xüsusi qonaqlar qismində isə Azərbaycan Animasiya Assosiasiyasının sədri, ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının direktoru Rəşid Ağamalıyev, rejissor Nəzrin Ağamalıyeva, Gəncə Dövlət Kukla Teatrının direktoru Fərmail Paşayev və sahə mütəxəssisləri iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Animasiya Assosiasiyası milli animasiya kino sənətinin inkişafına dəstək vermək məqsədilə 2018-ci ildən etibarən Bakıda ANİMAFİLM Beynəlxalq Animasiya Festivalını keçirir. Ötən il ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı Britaniya Kino və Televiziya Sənətləri Akademiyası tərəfindən “BAFTA Festivallar Siyahısı”na daxil edilib.

Bölgələrdə animasiya kinosu və sənayesinin inkişafının təşviqi məqsədilə keçirilən regional festivallar da artıq ənənəyə çevrilib. Əvvəlki illərdə Şəki, Naxçıvan və Lənkəranda animasiya festivalları keçirilib.

***XQ***

Təqdimat



# “Türkdilli ölkələrin milli musiqi alətləri”

**Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Türk Mədəniyyəti və İrsi Fondu və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə hazırlayıb nəşr etdirdiyi “Türkdilli ölkələrin milli musiqi alətləri” kitabının təqdimat mərasimi keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov “Türkdilli ölkələrin milli musiqi alətləri” kitabının nəşrini mədəniyyət sahəsinin mühüm hadisəsi kimi dəyərləndirib. Prezident İlham Əliyevin “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”, sözlərini xatırladan akademik bildirib ki, dövlətimizin başçısı türk xalqlarının oxşar milli irsinə, dəyərlərinə, mental xüsusiyyətlərinə həm də güclü ideoloji-siyasi amil kimi yanaşır. Alim ictimaiyyətə təqdim olunan kitabda çoxsaylı elmi mənbələr əsasında türkdilli xalqlar arasında ən geniş yayılmış 104 ənənəvi musiqi aləti haqqında dəyərli məlumatların toplandığını bildirib.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Türk dünyasının mədəni dəyərlərinin qorunması, bərpası və təbliği istiqamətində rəhbərlik etdiyi qurum tərəfindən həyata keçirilən beynəlxalq layihələr və görülən işlər barədə danışıb, təqdim edilən kitabın önəmini vurğulayıb. Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, millət vəkili Günay Əfəndiyeva Azərbaycan, türk, rus və ingilis dillərində oxuculara təqdim olunan nəşrdə Azərbaycan muğamı, musiqi mədəniyyətinin ən qədim sahələrindən biri olan aşıq sənəti barədə də məlumatların yer aldığını söyləyib.

“Ön söz”ün müəllifi BMA-nın rektoru, professor Fərhad Bədəlbəyli bu layihənin türk birliyinin möhkəmləndirilməsinə, türkdilli xalqların zəngin ənənəvi musiqi irsinin araşdırılmasına və qorunub saxlanmasına dəstək olacağına əminliyini bildirib. Türkiyənin Osmaniyə Qorqut Ata Universitetinin baş muəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Meysər Kaya kitabın türk xalqlarının musiqi mədəniyyətinə vediyi töhfədən danışıb. Üzeyir Hacıbəyli adına BMA-nın prorektoru, professor Gülnaz Abdullazadə müxtəlif sahələr üzrə belə sanballı kitabların hazırlanmasının vacibliyini qeyd edib.

Sonda Qədim Musiqi Alətləri ansamblının ifasında “Əbdülqadir Marağayinin bəstəsinə kompozisiya”, həmçinin digər musiqi nümunələri səsləndirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Hər kitab bir dünyadır




## İstiqlal şairinin həyatı Ankara nəşrində

**Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Sahib İbrahimlinin “Əhməd Cavadın həyat və yaradıcılığının Gəncə dövrü” kitabı Ankarada türk dilində çapdan çıxıb.**

Konya Selcuk Universitetinin dosenti Təranə Həşimovanın türkcəyə uyğunlaşdırdığı kitabda istiqlal şairi Əhməd Cavadın həyatı, ədəbi fəaliyyətinin Gəncə dövrü əksini tapıb və onun Türkiyə ilə bağlarından, Qafqaz–Türk İslam Ordusunun Azərbaycan xalqının azadlıq mübarizəsində dəstəyi və önəmli rolundan bəhs edilir.

Nəşrdə qeyd olunur ki, Əhməd Cavad XX əsr Gəncə ədəbi mühitinin yetişdirdiyi mühüm simalardan biridir. O, Azərbaycan ədəbi-bədii fikir tarixində özünəməxsus dəst-xətti ilə seçilən və doğma xalqının müstəqillik ideallarına həyatı boyu bütün qəlbi ilə sadiq qalmış söz ustadıdır.

Azərbaycan Mədəniyyət Mərkəzindən verilən məlumata görə, “Əhməd Cavadın həyat və yaradıcılığının Gəncə dövrü” kitabının Türkiyədə təqdimatının keçirilməsi və aparıcı kitabxanalara, elmi-tədqiqat müəssisələrinə hədiyyə edilməsi nəzərdə tutulur.




## Kiçik rolların mahir ifaçısı

**Filologiya doktoru, Əməkdar mədəniyyət işçisi olan görkəmli publisist Fazil Rəhmanzadənin yenicə işıq üzü görmüş “Taleyi ilə barışan sənətkar” kitabı yüksək bədii keyfiyyəti, təqdirəlayiq məzmunu ilə diqqət çəkir.**

Müəllifin bu növbəti portret kitabı milli səhnə sənətimizin fədakar üzvlərindən biri, ömrünün 60 ilini Azərbaycan Dövlət Akademik Dram Teatrının inkişafına həsr etmiş Əməkdar artist Hacıməmməd Qafqazlıya həsr olunub. Tamaşaların əksəriyyətində kiçik rollarda oynasa da, ifası ilə yadda qalan aktyorun oyun tərzlərinə işıq tutan kitabda onun özəl sənət düşüncələrinə, teatr, səhnə, pyes və tamaşalar barədə şəxsi fikirlərinə, yaradıcılıq həyatı boyu görüşüb sıx ünsiyyətdə olduğu görkəmli sənət xadimləri haqqında unudulmaz xatirələrinə də yer verilib.

Yeni kitabı da Fazil Rəhmanzadənin özünəxas yaradıcılıq üslubundan soraq verir. Müəllifin sənət yolunda bir çox çətinliklərlə üzləşmiş Hacıməmməd Qafqazlı haqqında qeydlərini nikbin notlarla bitirmək bacarığı xüsusilə təqdirəlayiqdir.

***Ə.ƏLİYEV***
***XQ***

# Tramp Amerikaya "qızıl əsr" vəd etdi

## *Onun "tarif" atəşi bumeranqa çevriləcəkmi?*

**Martın 5-nə keçən gecə ABŞ Prezidenti Donald Tramp Konqresdə "Ölkədə vəziyyət" ilə bağlı çıxış etdi. O, iqtisadiyyat, Ukrayna münaqişəsinin həlli və müxtəliflik siyasəti ilə mübarizə haqqında danışdı. Prezident Tramp çıxışında Qrenlandiya, Panama və Marsı da unutmadı. Ukrayna məsələsinə toxunan Ağ evin sahibi ehyam vurdu ki, prezident Volodimir Zelenski sülhə hazırlığını bildirir və bu istiqamətdə çalışmaq olar. Bəs, demokratların səsli-səssiz etirazları fonunda edilən çıxış son günlər beynəlxalq münasibətlərdə müşahidə olunan gərginliyin artan tempinə necə təsir göstərəcək? Amerikalılar, eləcə də avropalılar bu məsələdə nə kimi mövqe tutacaq, ümumiyyətlə, proseslər ABŞ liderinin mesajlarından sonra hansı istiqamətdə inkişaf edəcək?**

söylədi. "Biz sizin öz gələcəyinizi təyin etmək hüququnuzu qətiyyətlə dəstəkləyirik və seçsəniz, sizi Birləşmiş Ştatlarda salamlamaqdan məmnun olarıq. Bizə milli və hətta beynəlxalq təhlükəsizlik üçün Qrenlandiya lazımdır və biz bunu əldə etmək üçün bütün maraqlı tərəflərlə işləyirik", – deyə Tramp bildirdi. Amma yenə də bu fikri deməkdən özünü saxlaya bilmədi: "Bu və ya digər şəkildə onu (Qrenlandiya-red.) əldə edəcəyik. Biz sizin təhlükəsizliyinizi təmin edəcəyik. Sizi zəngin edəcəyik. Və



ABŞ Prezidenti Donald Trampın 2025-ci il martın 4-də Konqresdəki çıxışı respublikaçılar və demokratlar arasında dərin uçurumu təsdiqləməklə yanaşı, həm də ölkənin mövcud siyasi reallıqlarını əks etdirdi. Trampın çıxışı, təxminən, 1 saat 40 dəqiqə davam etdi və bu, prezidentlərin tarixdə Konqresdə ən uzun çıxışlarından biri oldu. Çıxış demokratların etirazları ilə müşayiət olundu: konqresmen Al Qrin prezident Donald Trampın ölkəyə rəhbərlik etmək üçün "heç bir mandatı olmadığını" qışqırdığı üçün zaldan çıxarıldı, digər demokratlar isə nümayişkaranə şəkildə palatanı tərk etdilər və ya "Yalanlar" və "Medicaid-i xilas et", "Maks oğurlayır" sözləri yazılan kiçik plakatları qaldırdılar.

Prezident Trampın xarici siyasət, xüsusən də Ukrayna və Rusiya ilə bağlı bəyanatları geniş beynəlxalq rezonans doğurdu. Hər iki tərəfin sülh danışıqlarına hazır olduğu barədə açıqlama çoxları üçün gözlənilməz oldu və mütəxəssislərin fikrincə, bu, geosiyasi vəziyyətdə ciddi dəyişikliklərə səbəb ola bilər. O, martın 4-də Ukrayna Prezidenti Vladimir Zelenskidən "vacib məktub" aldığını bildirdi və Zelenskinin Ukraynanın "davamlı sülhü yaxınlaşdırmaq üçün mümkün qədər tez danışıqlar masasına oturmağa" hazır olduğunu diqqətə çatdırdı. ABŞ Prezidenti məktuba görə minnətdar olduğunu vurğulayaraq əlavə etdi ki, Vaşinqton Rusiya ilə ciddi danışıqlar apardı və tərəflərin sülhə hazır olduqlarına dair güclü siqnallar aldı.

Xatırladaq ki, Zelenski hələ Trampın çıxışından əvvəl Ukraynanın danışıqlar masası arxasına oturmağa hazır olduğunu deyərək Ağ evdə ABŞ Prezidenti ilə mübahisəyə görə peşman olduğunu açıqlamışdı. Ukraynanın Vaşinqtondakı səfiri Oksana Markarova daha sonra bildirmişdi ki, sözügedən məktub Trampın Konqresdə oxuduğu həmin açıqlamadır. Tramp, həmçinin dedi ki, ABŞ-da "kritik mineralların və nadir metalların istehsalını kəskin şəkildə genişləndirmək üçün bu həftənin sonunda, martın 9-na kimi tarixi addım atacaq".

Ağ evin sahibi qeyd etdi ki, Rusiya Prezidenti Vladimir Putin ABŞ-ın Əfqanıstandan qoşunlarını çıxardığını gördükdən sonra Ukraynaya genişmiqyaslı müdaxiləyə başladı. Tramp ABŞ-ın 46-cı prezidenti Co Baydenin 2021-ci ilin avqustunda qoşunların xaotik şəkildə çıxarılmasını pislədi: "Putin baş verənləri görəndə düşünürəm ki, o, "bəlkə bu, mənim şansımdır" dedi". "Bu baş verməməli idi", – deyən ABŞ Prezidenti Tramp Bayden administrasiyasını "son dərəcə səriştəsiz insanlar" adlandırdı.

Associated Press xəbər verir ki, çıxışı zamanı Tramp ABŞ iqtisadiyyatını, immiqrasiyasını və xarici siyasətini dəyişdirmək üçün "sürətli və amansız fəaliyyət" kampaniyasını davam etdirəcəyinə söz verdi. "Xalq məni bu işi görmək üçün seçdi və mən də bunu edirəm". Eyni zamanda, Donald Tramp başqa ölkələrdən idxal olunan mallara tarifləri artırmağa hazırlaşdığını diqqətə çatdırdı. Onun sözlərinə görə, Çin, Hindistan və Avropa İttifaqı aprelin 2-dən qüvvəyə minəcək cavab tariflərinə hazır olmalıdır: "Bizdən nə tələb edirlərsə, biz də onlardan tələb edirik. "Onlar bizə nə vergi verirlərsə, biz də onlara vergi veririk", – deyən Tramp artan qiymətlərdən də danışdı və xalqa müraciət etdi ki, "Bir az narahatlıq olacaq, amma biz buna etiraz etmirik".

Amma "Financial Times" (FT) xəbər verir ki, ABŞ fermerləri Kanada, Meksika və Çindən idxala tətbiq edilən yeni tarifləri tənqid edərək onların kənd təsərrüfatına zərbə vuracağını bildirirlər. Onlar tariflərin mühüm ixrac bazarlarına çıxışı məhdudlaşdıracağından qorxurlar. Fermerlər vəziyyətin kənd təsərrüfatının 27 milyard dollar itirdiyi 2018-ci ildəki ticarət müharibəsinin nəticələrini təkrarlayacağından ehtiyatlanırlar. FT yazır ki, bu dəfə fermerlər az hazırlıqlıdırlar: xammal qiymətləri 50 faiz ucuzlaşsa da, gübrələrin qiyməti bahalaşmışdır. Tramp isə öz növbəsində hesab edir ki, tariflər gəlir gətirəcək və iş yerləri yaradacaq. Amma analitiklər proqnozlaşdırırlar ki, Çinlə ticarət müharibəsi Pekinin iqtisadiyyatı şaxələndirmək istəyini daha da gücləndirəcək və bu, ABŞ-ın kənd təsərrüfatı məhsullarına tələbi azaldacaq.

Bununla belə, Ağ evin sahibi fərqli düşünür. Martın 4-də Kanada, Meksika və Çinə qarşı başladılan tarif müharibəsi, Trampın sözlərinə görə, "Amerikanı yenidən zənginləşdirəcək" və şirkətləri ABŞ-da daha çox məhsul istehsal etməyə, yeni iş yerləri və imkanlar yaratmağa təşviq edəcək. Bundan başqa, Tramp ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün ABŞ-da böyük vergi endirimləri etməyi planlaşdırdığını da diqqətə çatdırdı. ABŞ lideri bundan əvvəl neft və qaz sektoru da daxil olmaqla, Amerika istehsalçılarına vergiləri 21 faizdən 15 faizə endirmək niyyətində olduğunu bildirmişdi. Konqresdəki çıxışı zamanı Tramp sabiq prezident Co Baydeni ABŞ-da yumurtanın bahalaşmasında günahlandırdı.

Tramp Qrenlandiyanı ABŞ-a qəbul etmək istəyini yenə təkrarladı, lakin o, bu qərarı Qrenlandiyanın özü verməli olduğunu birlikdə Qrenlandiyanı heç vaxt təsəvvür etmədiyiniz zirvələrə aparacağıq".

Çıxışının sonunda Prezident Tramp Marsda ABŞ bayrağını sancacağına da söz verdi: "Biz bəşəriyyəti kosmosa aparacaq və Amerika bayrağını Mars planetində və hətta ondan uzaqlarda sancacağıq". Ağ ev sahibi çıxışında kosmosla birbaşa əlaqəsi olan milyarder İlon Maskı da təriflədi və onun rəhbərlik etdiyi Hökumətin Səmərəliliyi Departamentində xərcləri azaltmaq səylərini yüksək qiymətləndirdi: "Bu, yalnız başlanğıcdır". Bundan başqa, Amerika Prezidenti söz verdi ki, Birləşmiş Ştatlar yeni minillikdə ilk dəfə balanslaşdırılmış federal büdcəyə malik olacaq və hökumət yanacaq xərcləri də daxil olmaqla, vətəndaşların yaşayış xərclərini azaldacaq.

Ümumilikdə, Prezident Trampın çıxışı onun həm daxili, həm də xarici siyasətdə köklü dəyişikliklər etmək istəyini vurğuladı və bu, müxtəlif siyasi qüvvələr və beynəlxalq ictimaiyyət tərəfindən həm dəstək, həm də tənqidlərə səbəb oldu. Respublikaçı deputatlar prezidentin çıxışını coşqu ilə qarşıladılar. Onun demək olar ki, hər bir bəyanatını ayaq üstə alqışlayır, kürsüyə çıxarkən "ABŞ" şüarları səsləndirirdilər. Demokrat konqresmenlər isə, əksinə, Trampın çıxışını tənqid etdilər. Prezident danışmağa başlayandan qısa müddət sonra bəzi demokratlar onun sözünü kəsdilər və Texasdan olan konqresmen Al Qrin Trampın impiçmentinə çağırdı, bundan sonra Nümayəndələr Palatasının spikeri Mayk Conson Qrinin palatadan çıxarılmasını əmr etdi. Daha bir neçə demokrat "İrqçi" yazılmış köynəklər geyinərək palatadan çıxdılar.

Trampın çıxışı okeanın bu tayında gözlənildiyi kimi, ciddi reaksiyalara səbəb olmadı. Amma Avropa KİV-də yayılan son məlumatlar belə deməyə əsas verir ki, "köhnə dünya" təhlükəsizlik və Ukraynaya dəstək məsələsində hərəkət etməyə hazırlaşmalıdır. "The Daily Mail" qəzeti yazır ki, Donald Tramp ölkəsinin NATO-dakı aparıcı rolundan imtina etməyi düşünür.

ABŞ liderinin Konqresdəki çıxışında da Avropa ilə münasibətlərə heç toxunmaması bu ehtimalı gücləndirir. Yaxınlaşan təhlükəni "qoca qitə"də hiss edirlər. Belə ki, Fransa prezidenti Emmanuel Makronun Trampın Konrqesdəki çıxışından sonra xalqa müraciət edərək bildirdi ki, Amerika "nüvə çətirini" Ümumavropa çətiri ilə əvəz etməyin vaxtıdır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

## *orqtexnika avadanlıqlarının satın alınması üçün*

# AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin orqtexnika avadanlıqlarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 14 mart 2025-ci il saat 17.00-dır .

**Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.**


XQ-nin araşdırması

**Hər gün kiçik və böyük marketlərin meyvə-tərəvəz satışı rəflərində, demək olar ki, daş kimi bərk gömgöy almalara, eləcə də çox vaxt rəngləri solmuş çeşidli armudlara, digər meyvələrə rast gəlirik. Onların müştəriləri çox az olur. Həm qiymətləri nisbətən bahadır, həm də çoxu dadsız, tamsızdır. Hamı bilir ki, bunlar hibrid meyvələrdir.**

# Hanı o "abbasbəyi", "nararmudu"...



## *Qubanın dədə-baba bağlarının məhsullarına tələbat artır*

Satışa çıxarılan həmin meyvələr əsasən yaxın-uzaq xarici ölkələrdən, az qismi isə bölgələrimizdən gətirilir. Marketlərdə bəzən bu meyvələrin qiymətləri endirilir də. Alıcılar belə hallarda da həmin meyvələrə tamah salmırlar. Hesab edirlər ki, bunlara o qədər gübrə, pestisid qatıblar ki, yesələr, mədələri faydadan çox, zərər görəcək. Əslində, düz də edirlər. Mənşəyi bilinməyən meyvələri niyə yeməlidirlər ki?

Belə məqamlarda alıcılar haqlı olaraq ürəklərində soruşurlar: bəs bizim bağların bir-birindən dadlı, şirin, sulu meyvələri haradadır? Niyə onları bazar və marketlərdə tapmaq mümkün deyil? Hətta bazarlarda da yerli meyvələr azdır. Bəzi müştərilər isə yerli və hibrid meyvələri bir-birindən fərqləndirə bilmir, sonradan bunun fərqinə varanda isə gec olur.

Bu yaxınlarda kəndimizə getmişdim. Orada belə bir şad xəbər eşitdim. Mənə dedilər ki, son vaxtlar ölkəmizin şimal bölgələrində, xüsusilə Qubada fermerlər və pay torpaq mülkiyyətçiləri yerli meyvə sortlarını yetişdirməyə üstünlük verirlər. Deməli, hər şey öz əvvəlki axarına qayıdır. Ən yaxın illər ərzində yenə dadlı, ətirli meyvələr bazar və marketlərin bəzəyinə çevriləcək.



...Uca zirvələrindəki dümağ qar hətta yay aylarında belə əriməyən Bəhyə dağının ətəklərindən axır Qaraçay Xəzər dənizinə tərəf. Qaraçay ölkəmizdə yay aylarında tam qurumayaraq dənizə gedib çatan cəmi bir neçə çaydan biridir. Məhz burada çayın sol sahilindəki yüz hektarla bərəkətli torpaqlarda yerləşir Quba rayonunun Birinci Nügədi kəndi. Adamları torpağa bağlı, əməksevər, böyük-kiçik yeri bilən, qonaqlı-qaralı, sayılıb-seçilən kəndlərdəndir.

Bura ta qədim dövrlərdən gözəl, məhsuldar bağlarında yetişdirilən ətirli meyvələri ilə məşhur olub. Təbii ki, kənd sakinlərinin əsas məğuliyyəti bu yerlər üçün ənənəvi sahə olan meyvəçilikdir. İnsafən, şimal bölgəsində çoxları etiraf edirlər ki, ölkəmizin hər bir guşəsində yetişən meyvələrin öz keyfiyyəti, şirinliyi var, amma Nügədinin almasının, armudunun, xüsusilə də gilasının dadı bir başqadır.

Bunu ona görə əminliklə deyirəm ki, bu kənddə doğulub boya-başa çatmışam. Hörmətli oxucular, kəndimizin meyvələri ilə bağlı bir qədər mübaliğəyə yol verirəmsə, üzürlü sayın, çünki hər kəsə doğması bir köynək yaxındır. İndi isə məqsəddən yayınmaq istəmirəm. Niyyətim bu yerlərin klassik meyvə sortlarının açıq-aşkar üstünlükləri barədə söz açmaqdır.

...Yazın gəlişi ilə meyvə bağlarında yaz-tarla işləri artıq start götürüb. Düzdür, bəzi, nisbətən hündür təpələrin üzü quzeyə olan yamaclarında adda-budda qar talaları hələ də qalırdı. Buna rəğmən artıq fermerlər yaz budama işlərinə başlayıblar. Burada martın ortalarından aprelin əvvəllərinə kimi ağacların diblərini yumşaldacaqlar. Qarşıdakı günlərdə həm də ziyanvericilərə qarşı dərman səpiləcək. Paralel olaraq sahələrin üzvi və mineral gübrələrlə "yemlənməsi" davam edir.

**Birinci Nügədi kəndində səriştəli bağban kimi ad çıxaran Mirzə İsayevi çoxdandır tanıyıram. Əslində, uşaqlığımız bir yerdə keçib. Mirzə kişi kənd sakinlərinin ənənəvi meyvə sortlarına qayıtmasının səbəblərini izah edərkən dedi:**

– Qubanın qədim meyvələrini hazırkı hibrid alma və armud növləri ilə müqayisə etmək olmaz. Qədim sortlar həm ekoloji cəhətdən təmizdir, həm də çox dadlı və ətirlidir. İnanın mənə, onlar cana dərman qədər faydalıdır.

Mirzə kişi sözünün davamında onu da bildirdi ki, məsələn, son illərə qədər itib-batmaqda olan "küdrü armudu" çox şirin sulu və dadlıdır. Təqribən, 40-50 il əvvəllər kənd sakinləri onu bir müddət evlərinin zirzəmilərində saxlayar, meyvələr təravətini uzun müddət saxlasın deyə, üstünü bu dağlarda yetişən qıjı bitkisi ilə örtərdilər. Hər Yeni il, yaxud Novruz bayramları ərəfələrində meyvələri səliqə ilə yeşiklərə yığaraq yaxın-uzaq şəhərlərə aparardılar.

Mirzə İsayevin bir müddət əvvəl yolu Qaraçayla paralel qonşu Amsar kəndinin ərazisindən axan Ağçay çayından üzü yuxarı dağlara tərəf hündür dağ yamaclarında yerləşən Digah kəndinə düşüb. Orada qədim meyvə sortlarından, eləcə də "küdrü" armuddan söz düşüb. Məlum olub ki, Digahda bu armudun kökü hələ kəsilməyib.

Mirzə kişi bu fürsəti qaçıra bilməzdi. Digahlı tanışların bağlarından bir neçə cavan ting gətirib əvvəlcə "küdrü"nü öz həyətyanı sahəsində yetişdirib, sonra isə qonşularına çoxlu calaq verib ki, onlar da öz bağlarında bu dadlı armudu becərib çoxaltsInlar.

Qubada "sarı armud" deyilən digər bir qədim armud növü var. Vaxtilə təbii ki, soyuducular olmayıb, sarı armudu uzun müddətə saxlamaq üçün onun meyvələrini qurudaraq qax ediblər. "Sarı armud"un özünün də, qaxının da adı, şöhrəti çox uzaqlara yayılmışdı.

Bir vaxtlar Qubanın "abbasbəyi", "əhmədqazı", "qorxmazı", "nararmudu" və başqa armudlarını ən hörmətli qonaqlar üçün süfrələrə düzərdülər. İndiki armud növlərinin adlarını yadda saxlamaq belə çətindir.

Təkcə Birinci və İkinci Nügədi kəndlərində deyil, ətrafdakı Amsar, Pirvahid, Rustov, Ərməki, Qonaqkənd, Xanəgah və s. yaşayış məntəqlərinin fermerləri rayonun ərazisində yerləşən Kənd Təsərrüfatı Nazirliyinin Quba Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun alimləri ilə daim əlaqə saxlayırlar. İnstitutdan XQ-yə bildirdilər ki, təbii-coğrafi şəraitinə görə Quba–Xaçmaz bölgəsində meyvəçilik hələ qədim zamanlardan inkişaf etmişdir. Tumlu (alma, armud, heyva) bitkilərinin müxtəlif sortları bu bölgənin dağətəyi hissələrində becərilmiş, meyvələrdən isə təzə, qurudulmuş şəkildə qax, həmçinin cem, doşab və digər ərzaqların hazırlanmasında geniş istifadə edilmişdir.

Bölgənin köhnə ata-baba bağlarında 100-dən çox alma-armud sortları yayılmış və bu sortların meyvələrindən təzə halda, yaxud qurudulmuş qax formasında istifadə edilmişdir. Təəssüf ki, zaman keçdikcə bu sortların itmə təhlükəsi ortalığa çıxmışdır. Ona görə də bölgənin müxtəlif yaşayış məntəqələrindən xalq seleksiyası yolu ilə əldə olunmuş alma-armud sortlarının toplanması və çoxaldılması mühüm önəm daşıyır.

Vaxtilə Quba rayonunda intensiv bağçılığın inkişafı məqsədi ilə palmet bağları salınıb. Bura böyük vəsait xərclənib, amma çəkilən əziyyət səmərə verməyib. Palmet bağları ənənəvi bağçılığa zərər yetirməklə bərabər, müştəriləri də dadlı, sulu meyvələrə tamarzı qoyub.

İndi, vəziyyət yuxarıda qeyd etdiyimiz kimi, yavaş-yavaş yaxşılığa doğru dəyişir. Bağbanlar daha çox qədim meyvə sortlarını əkib-becərirlər. Təki belə olsun. Bu prosesi mümkün qədər sürətləndirmək lazımdır. Bu, həm kəndlinin, həm də onun məhsulunun şəhərdəki istehlakçılarının xeyrinə olardı.

***Məsaim ABDULLAYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 50 (30744) 6 mart 2025-ci il, cümə axşamı

İdman

## Qəbələdə idman paradı



**“İdman paytaxtı” Qəbələdə 5 Mart Bədən Tərbiyəsi və İdman Günü münasibətilə parad təşkil edilib.**

İdman federasiyalarının nümayəndələri, Olimpiya, Paralimpiya çempionları, idman səfirləri, könüllülər, Milli Antidopinq Agentliyi, Azərbaycan İdman Akademiyasının tələbələri və digər rəsmi şəxslərin iştirakı ilə keçirilən parad Fövqəladə Hallar Nazirliyinin önündə başlayıb və Qəbələ regional “ASAN xidmət” mərkəzinin qarşısında başa çatıb.

Paraddan sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Gənclər və idman naziri Fərid Qayıbov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Bədən Tərbiyəsi və İdman Gününün hər il ölkədə, o cümlədən bölgələrdə təntənəli şəkildə qeyd edildiyini vurğulayıblar.

Paradın ardınca konsert proqramı təşkil edilib.

## Rapid yarışı başa çatıb

**Qənirə Paşayevanın xatirəsinə həsr olunan beynəlxalq şahmat turnirində rapid yarışının qalib və mükafatçıları müəyyənləşib.**




Tanınmış ictimai-siyasi xadimin 50 illik yubileyi ərəfəsində keçirilən turnirin rapid yarışında Azərbaycan təmsilçisi Xanım Balacayeva qalib adını qazanıb. Nurgül Səlimova (Bolqarıstan) 2-ci, Azərbaycanın digər təmsilçisi Gövhər Beydullayeva 3-cü yerləri tutublar. Şahmatçılar mübarizəni blits yarışında davam etdirəcəklər.

***LA ZAD***
***XQ***

## “Kasıb evində toy” şənliyi

**Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Əzim Əzimzadə yaradıcılığı ilə xalqının həyatını, adət-ənənələrini, sosial problemlərini böyük ustalıqla əks etdirən sənətkarlardandır. Onun əsərlərində, xüsusilə satirik realizm ön plana çıxır. Bu cəhət “Kasıb evində toy” tablosunda da özünü bariz şəkildə göstərir.**



1930-cu illərdə ərsəyə gətirilən bu əsər məhz həmin dövrün sosial və mədəni mənzərəsini özündə daşıyır. Tabloda kasıb ailənin evində keçirilən sadə bir toy mərasimi əks olunur. Rəssam burada dövrün sosial təbəqələşməsini, yoxsulluq və zənginlik arasındakı fərqi incə detallarla təsvir edir.

Əsərdə zəngin toylara xas olan dəbdəbə və bolluq əvəzinə, məhdud imkanlar, darısqallıq və sadəlik nəzərə çarpır. Ziyafətin bəsitliyi, kasıb ailənin üzvlərinin simasındakı ifadələr, onların geyimləri o dövrün çətin həyat şəraitini göz önünə gətirir.

Tablodakı rəng koloriti, obrazların jest və mimikaları, işıq və kölgə oyunları əsərin təsir gücünü artırır, qaranlıq və solğun rənglərdən istifadə isə yoxsulluğu daha da bəlli edir.

***Leyla İLKİNQIZI,***
*tələbə-jurnalist*

Tarixin gizlinləri

# İngilislərin “krossvord döyüşü”

*Yaxud Normandiya əməliyyatı niyə təhlükə altına düşmüşdü?*

**1944-cü il iyunun 6-da anti-Hitler koalisiyasına daxil olan Qərb müttəfiqləri – ABŞ, Böyük Britaniya və Kanada Fransanın şimalına – Normandiya sahilinə desant çıxarmışdılar. Bu əməliyyat İkinci Dünya müharibəsinin başa çatmasını və nasist rejiminin süqutunu sürətləndirmişdi. Amma əməliyyat öncəsi İngiltərədə baş vermiş bir hadisə hücumu, az qala, təxirə salacaqdı.**







Müharibə illərində britaniyalılar Hitler qoşunları üzərində yeni qələbələr haqqında xəbərləri oxumaq ümidi ilə qəzetləri həvəslə vərəqləyirdilər. Onlar son səhifəyə çatanda beyin məşqinə – krossvord həll etməyə başlayırdılar. Böyük Britaniyanın əks-kəşfiyyat agentliyi olan Mİ5-in əməkdaşları da daxil olmaqla, hamı krossvord həll etməyi sevirdi.

Oxucu sual verə bilər ki, burada qeyri-adi nə var? Krossvord həll etməyin hansı arzuolunmaz tərəfləri ola bilər? Məsələ ondadır ki, 1944-cü ilin may ayının əvvəlində, vacib əməliyyatdan, təxminən, bir ay əvvəl kəşfiyyat agentləri “Daily Telegraph” qəzetində krossvordlarda şifrələnmiş sözlərin Normandiya əməliyyatına hazırlıq zamanı istifadə edilən gizli işarələr olduğunu görmüşdülər.

Krossvordun cavabları arasında “Yuta” və “Omaha” sözləri də var idi – müttəfiqlər Amerika qoşunlarının gedəcəkləri fransız çimərliklərini məhz belə adlandırırdılar. Başqa bir söz, “Malberri” ingilislərin avadanlıqları, insanları və resursları daşımaq üçün istifadə etməyi planlaşdırdıqları sahil qurğularının adı ilə eyni idi. Krossvorddakı “Hökmdar” ipucu kəlməsi “Overlord” sözünə işarə edirdi. Fransanın şimalını azad etmək əməliyyatının adı da məhz belə idi. Nəhayət, son söz, “Neptun” əməliyyatın birinci mərhələsinin, yəni Normandiyaya desant çıxardılması adı ilə üst-üstə düşürdü.

Bir və ya iki söz yenə də sadə bir təsadüf ola bilərdi. Bəs beş söz necə?! Əks-kəşfiyyat, kiminsə əməliyyatla bağlı məlumatı almanlara sızdırmaq üçün krossvorddan istifadə etdiyindən şübhələndi. Buna görə də əks-kəşfiyyat xidməti ilkin olaraq “Daily Telegraph” üçün krossvordları tərtib edən şəxsi – Surrey qraflığında yerləşən Effingham məktəbinin direktoru Leonard Dounu dindirməyə başladı.

Planlaşdırılan əməliyyatdan cəmi bir neçə həftə əvvəl Mİ5-in iki agenti Dounu dindirmək üçün qraflığa gəldi. Əgər onların şübhələri təsdiqlənsəydi və direktor həqiqətən də casus olsaydı, bütün əməliyyat təhlükə altına düşəcəkdi. Bu o demək olardı ki, almanlar rəqiblərin peyda olmasına hazırlaşırdılar. Buna görə də, müttəfiq komandanlıq belə bir ehtimalı nəzərə alaraq böyük itkidən qaçmaq üçün əməliyyatı dayandırmaq barədə düşünürdü.

Mİ5 agentləri şübhələndikləri Leonard Dounu tənha bir anbar otağına apardılar və ona suallar verdilər. Onlar aydınlaşdırmaq istəyirdilər: Dou niyə krossvord hazırlayanda məhz əməliyyata aid 5 sözdən istifadə etmişdi. Dou təəccüb içində heç bir suala konkret cavab verə bilmədi. Sadəcə, bunun inanılmaz bir təsadüf olduğunu bildirdi.

Şübhəli şəxsdən dəqiq cavab ala bilməyən Mİ5 onu işdən uzaqlaşdıraraq nəzarət altına götürdü. Dindirmələr bir neçə gün davam etdi. Əks-kəşfiyyat zabitləri Londonla daimi əlaqə saxlayırdılar, Normandiya əməliyyatını ləğv etmək üçün bir zəng kifayət edirdi. Karyerası ərzində 5 mindən çox krossvord hazırlayan Dou nə baş verdiyini anlamırdı. O, həmin kabus dolu bir neçə gün barədə yalnız 1958-ci ildə danışmışdı.

Dou söz-krossvord uyğunluğunun, sadəcə, qəribə bir təsadüf olduğunu təkid etməyə davam etdiyi üçün müstəntiqlər eyni məktəbdəki başqa bir müəllim ilə görüşdülər və o da krossvordlar hazırlayırdı. Agentlər onu da güclü sorğu-suala tutdular. Lakin həmin şəxsin də cavabları “müəmmaya” aydınlıq gətirmədi. Bütün ipuclarını yoxlayan Mİ5 agentləri Dounu azad etdilər və əməliyyat üçün heç bir təhlükənin aşkar edilmədiyini rəhbərliyə bildirdilər. Dou “potensial xain” kimi işdən çıxarılmadığını və işə qayıtdığını görüb təəccübləndi. Sonralar hadisə barədə danışan zaman zarafatla demişdi ki, Normandiya əməliyyatı uğursuz başa çatsaydı, məxfi xidmətlər onu günahlandırıb, yenə də divara söykəyə bilərdilər. Xoşbəxtlikdən müttəfiq qüvvələrin əməliyyatı uğurla keçdi, Qərbi Avropada ikinci cəbhə açdılar. Bir ildən az vaxt sonra müharibə başa çatdı. Lakin İngiltərənin Effingham bölgəsi uzun müddət “krossvorddakı panikası” ilə yadda qaldı.

Amma “panika” ətrafında baş verən hadisə bununla yekunlaşmır. Onilliklər sonra Leonardo Dounun şagirdi olmuş Ronald Frenç “Daily Telegraph” ilə əlaqə saxlamış və krossvorddakı sözlərin hərbi kodlarla oxşarlığının tamamilə təsadüfi olmadığını bildirmişdi. 1944-cü ilin yazında altıncı sinifdə oxuduğunu deyən Frenç əlavə etmişdi ki, müəllimi Dou tez-tez ondan və digər məktəblilərdən krossvordların hazırlanmasında ona kömək etmələrini xahiş edirdi. Həmin vaxt məktəbin ətrafında çoxlu amerikalı və kanadalı hərbçilər yerləşdirilmişdi. Frenç demişdi ki, o və bir neçə digər şagird yoldaşlarıyla müntəzəm olaraq bazanın ətrafında dolanır və əsgərlərin söhbətlərini dinləyir, sonra onları dəftərlərinə yazırdılar. Həmin sözlər də Douya təklif edilmişdi.

Normandiya əməliyyatından qısa müddət sonra Dou şagirdi Frençdən məxfi xidmətlərin marağına səbəb olan sözlər barədə sorğu-sual etmişdi. Şagirdin həmin sözləri əsgərlərdən eşitdiyini deyəndə müəllim dəhşətə gəlmişdi. O, Frençi danlamış, qeydləri olan dəftəri yandırmasını istəmiş və and içməyə məcbur etmişdi ki, heç vaxt bu barədə danışmayacaq. Frenç də bu andına uzun illər sadiq qalmışdı. Yalnız müharibə tarixə çevriləndən sonra krossvord məsələsini jurnalistlərə danışmışdı. O vaxta qədər heç kim Leonard Doudan casusluqda şübhələnmədi. Dünya tarixinə təsir göstərən əməliyyatın təxirə salınmasına “səbəb olacaq” şəxs 1963-cü ildə 73 yaşında vəfat etmişdi.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

## Akademik Musiqili Teatr Lənkəranda



**Mədəniyyət Nazirliyinin regionlarda qastrol səfərlərinin təşkil edilməsi barədə əmrinə əsasən, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının yaradıcı heyəti Lənkəranda qonaq olub. Lənkəran Dövlət Dram Teatrının səhnəsində kollektivin uğurla nümayiş etdirdiyi “Molla Nəsrəddinin beş arvadı” komediyası teatrsevərlər tərəfindən alqışlarla qarşılanıb.**

Özbək yazıçısı İbrahim Sadıqovun eyniadlı əsəri əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərov, quruluşçu rəssamı Nabat Səmədova, quruluşçu baletmeysterləri Əməkdar artist Zakir Ağayev və Yelena Ağayeva, baş dirijoru isə Əməkdar incəsənət xadimi Fəxrəddin Atayevdir.

Türk dünyasının kamillik, müdriklik simvolu olan Molla Nəsrəddinin beş arvadı ilə macəralarından bəhs edən gülüş dolu tamaşada bu əbədiyaşar obrazın hadisələrə çevik reaksiyası və intellektual yumor hissi onun bütün dövrlərin ən hazırcavab insanı olmasının bariz nümunəsidir.

Tamaşada rolları teatrın sevilən simaları – Əməkdar artistlər Əkbər Əlizadə, İqrar Salamov, aktyorlar Gülcahan Salamova, Ülviyyə Əliyeva, Gülnarə Abdullayeva, Gülnarə Əzizova, Türkel Tariqpeyma, Əliməmməd Novruzov, Fərid Rzayev və Ruslan Mürsəlov ifa edirlər.

***S.FİDAN***
***XQ***

HAVA

## Buludlu, lakin yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 6-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**



Əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq. Gecə 2-5°, gündüz 8-13° isti olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunundan 765 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 13-18° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və qardaşı Adil Əliyev Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova qardaşı

**RÖVŞƏN CƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və qardaşı Adil Əliyev Real TV-nin baş direktoru Mir Şahin Ağayevə atası

**MİR DİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3366
SİFARİŞ 479
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00